QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 064 (5536) 5 **aprel** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**




# Xalqın seçimi dəyişməzdir - "İLHAMLA İRƏLİ"!



5

**Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının iclası keçirilib**



14

**Erməni portalı: "Aprel döyüşləri Ermənistan hərbçilərinin və siyasətçilərinin səriştəsizliyini ortaya qoydu"**



14

**Orduxanla Turalın digər satqın dostu haqqında şok faktlar**






# "İordaniya Azərbaycana dost ölkədir"

## *Prezident İlham Əliyev İordaniyanın informasiya və kommunikasiya üzrə dövlət nazirini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də İordaniya Haşimilər Krallığının informasiya və kommunikasiya üzrə dövlət naziri Mohammad əl-Momanini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Mohammad əl-Momani İordaniya Kralı II Abdullah ibn Al Hüseynin Prezident İlham Əliyevə və Azərbaycan xalqına salamlarını və ən xoş arzularını çatdırdı. Qonaq qeyd etdi ki, ölkəsi Prezident İlham Əliyevin liderliyinə, Azərbaycana və Azərbaycan xalqına dərin rəğbət hissi ilə yanaşır. İordaniyada ölkəmizin əldə etdiyi uğurların maraqla izlənildiyini deyən Mohammad əl-Momani Azərbaycanın mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edən bir nümunə ölkə olduğunu bildirdi.

İordaniya Kralı ilə Azərbaycan Prezidenti arasında olan şəxsi dostluq əlaqələrinin ikitərəfli münasibətlərimizdə böyük rolunu qeyd edən Mohammad əl-Momani İordaniya Kralı tərəfindən Azərbaycanla həm siyasi, həm də iqtisadi sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı göstərişlər verildiyini dedi. Azərbaycanın Qoşulmama Hərəkatı nazirlər konfransına ev sahibliyini yüksək qiymətləndirən İordaniya Haşimilər Krallığının informasiya və kommunikasiya üzrə dövlət naziri Mohammad əl-Momani bu tədbirə dəvətə görə minnətdarlığını ifadə etdi. Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev İordaniya Kralı II Abdullah ibn Al Hüseynlə şəxsi dostluq əlaqələrinin iki ölkə arasında münasibətlərin inkişafına töhfə verdiyini vurğuladı. İordaniyanın Azərbaycana dost ölkə olduğunu bildirən dövlətimizin başçısı ölkələrimiz arasında siyasi sahədə yaxşı münasibətlərin olduğunu qeyd etdi, iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi, o cümlədən ticarət dövriyyəsinin artırılması və investisiya imkanlarından istifadə edilməsinin vacibliyini vurğuladı. Azərbaycanın mühüm beynəlxalq tədbirlərin keçirildiyi bir məkana çevrildiyini məmnunluqla qeyd edən Prezident İlham Əliyev Qoşulmama Hərəkatı nazirlər konfransının əhəmiyyətinə toxundu və Azərbaycanın bu konfransa qarşıdan gələn sədrliyi illərində ölkələrimizi maraqlandıran məsələlərlə bağlı uğurlu əməkdaşlıq həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev İordaniya Kralı II Abdullah ibn Al Hüseynin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniya Kralına çatdırmağı xahiş etdi.

# Hindistan ilə Azərbaycan arasında tarixi əlaqələr mövcuddur

## *Prezident İlham Əliyev Hindistanın xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Hindistan Respublikasının xarici işlər naziri xanım Suşma Svaracın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Hindistan Respublikasının xarici işlər naziri Suşma Svaracın Qoşulmama Hərəkatı nazirlər konfransında iştirakının əhəmiyyətinə toxunaraq səfərin, eyni zamanda, ikitərəfli münasibətlərimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Bakıda keçirilən Qoşulmama Hərəkatı çərçivəsində nazirlər konfransının əhəmiyyətinə toxunan Suşma Svarac Hindistanın bu təşkilatın təsisçi üzvü olduğunu vurğuladı və tədbirdə iştirakından məmnunluğunu ifadə etdi. Ölkələrimiz arasında tarixi əlaqələrin mövcud olduğunu deyən Suşma Svarac bu gün də ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirdi və ticarət dövriyyəsinin böyük həcmdə artmasını əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. O, ölkəsində genişmiqyaslı iqtisadi islahatların həyata keçirildiyini qeyd edərək bu sahədə Hindistanın böyük potensiala malik olduğunu dedi. Nazir ölkəsinin Bakı-Tbilisi-Ceyhan layihəsində iştirakının önəmini vurğuladı və eyni zamanda, digər sahələrdə də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi. Hindistanlı nazir ölkəsinin Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən "Şimal-Cənub" və "Cənub-Qərb" beynəlxalq nəqliyyat dəhlizi layihələrində əməkdaşlıq etməkdə maraqlı olduğunu vurğuladı.

Öz növbəsində, ticarət dövriyyəsinin artmasından məmnunluğunu ifadə edən dövlətimizin başçısı ölkələrimizin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, sərmayə qoyuluşu, ticarət, nəqliyyat, turizm sahələrində əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsinin zəruriliyini qeyd etdi. Bakı-Tbilisi-Ceyhan qlobal layihəsində Hindistanın iştirakından məmnunluğunu bildirən Prezident İlham Əliyev gələcəkdə Hindistanın digər şirkətlərinin Azərbaycan iqtisadiyyatında investor kimi iştirak edəcəyinə ümidvar olduğunu bildirdi.

# Prezident İlham Əliyev Fələstinin xarici işlər nazirini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Fələstin Dövlətinin xarici işlər naziri Riad Malkini qəbul edib.***



AZƏRTAC xəbər verir ki, nazir Riad Malki Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Riad Malki İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsinə dair fövqəladə Zirvə toplantısında Azərbaycan Prezidentinin iştirakının çox əhəmiyyətli olduğunu qeyd etdi və bu tədbirdə göstərilən dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Qonaq Bakıda keçirilən Qoşulmama Hərəkatı nazirlər konfransının önəmini vurğuladı və bu tədbirdə iştirakından məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı Fələstinin xarici işlər naziri Riad Malkinin Bakıda keçirilən tədbirdə iştirakının önəmini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın hər zaman Fələstin Dövlətinin və Fələstin xalqının yanında olduğunu vurğuladı, İstanbulda keçirilən Zirvə toplantısında ölkəmizin iştirakını bu həmrəyliyin nümayişi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev Mahmud Abbasın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Fələstin Prezidentinə çatdırmağı xahiş etdi.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan musiqi sənətinin inkişafında xidmətlərinə görə Könül Kazım qızı Xasıyevaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 996-VQD nömrəli Qanununun tətbiqi və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1019-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1039-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 16 aprel tarixli 698 nömrəli Fərmanının ləğvi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 may tarixli 162 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 oktyabr tarixli 761 nömrəli Sərəncamında dəyişikliklər edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 287 nömrəli Fərmanının ləğvi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Qızıl Xaç Komitəsi arasında 2000-ci il 1 iyun tarixli Sazişin qüvvədəolma müddətinin uzadılması haqqında Protokolun təsdiq edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olan bəzi qurumların əsasnamələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 571 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Ağcabədi rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi haqqında Sərəncam imzalayıb.

# Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında ikitərəfli əlaqələr uğurla inkişaf edir

*Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər üzrə dövlət nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər üzrə dövlət naziri Ənvər Qarqaşın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlət naziri Ənvər Qarqaş Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı. Bakıda keçirilən Qoşulmama Hərəkatı nazirlər konfransının önəminə toxunan Ənvər Qarqaş dövlətimizin başçısı ilə bundan əvvəl keçirilən görüşü məmnunluqla xatırladı. Ölkələrimiz arasında əlaqələrə toxunan Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər üzrə dövlət naziri Azərbaycanda turistlər üçün viza rejiminin sadələşdirilməsini yüksək qiymətləndirərək, bunun ölkəsindən xeyli sayda turistlərin Azərbaycana gəlməsi işinə böyük təkan verdiyini vurğuladı.

Dövlətimizin başçısı Bakıda keçirilən Qoşulmama Hərəkatı nazirlər konfransında Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər üzrə dövlət naziri Ənvər Qarqaşın iştirakının önəmini qeyd etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini bildirdi, BƏƏ-dən Azərbaycana gələn turistlərin sayının ildən-ilə artmasını məmnunluqla vurğuladı. Dövlətimizin başçısı Azərbaycanda turizmin inkişafı sahəsində görülən işlərə toxunaraq, viza rejiminin daha da sadələşdirilməsi istiqamətində əlavə addımların atılmasının nəzərdə tutulduğunu dedi və BƏƏ-dən gələn turistlərin təkcə Bakıya deyil, regionlara da səfər etmələrinin önəmini qeyd etdi.

Görüş zamanı iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Şeyx Xəlifə bin Zayed Al Nəhyanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə çatdırmağı xahiş etdi.

# "Azərbaycanda son illər turizm sürətlə inkişaf edir"

*Prezident İlham Əliyev Dünya Turizm Təşkilatının baş katibini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvilini qəbul edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Zurab Pololikaşvilini Dünya Turizm Təşkilatının baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi və ona işində uğurlar arzuladı. Dövlətimizin başçısı Azərbaycanın Dünya Turizm Təşkilatı ilə ənənəvi uğurlu əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq Zurab Pololikaşvilinin ölkəmizə səfərinin əlaqələrin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.



Azərbaycan Prezidenti ilə görüşündən qürur hissi keçirdiyini deyən Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili rəhbərlik etdiyi qurumun və özünün fəaliyyətinə Azərbaycanın verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Azərbaycanda son illər turizmin sürətlə inkişaf etdiyi, ölkəmizə gələn xarici qonaqların sayının durmadan artdığı məmnunluqla qeyd olundu, Bakıda və regionlarda turizmin inkişafı üçün yüksək səviyyədə infrastrukturun yaradılması istiqamətində genişmiqyaslı işlərin həyata keçirildiyi vurğulandı, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Böyükkişi Ağa oğlu Ağayev



Azərbaycanın elmi ictimaiyyətinə ağır itki üz vermişdir. Görkəmli alim və pedaqoq, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Cərrahiyyə Mərkəzinin direktoru Böyükkişi Ağa oğlu Ağayev 2018-ci il aprelin 4-də ömrünün 90-cı ilində vəfat etmişdir.

Böyükkişi Ağayev 1928-ci il sentyabr ayının 10-da Sabirabad rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1944-1949-cu illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə fakültəsində ali təhsil almışdır.

1950-ci ildə Sabirabad rayon xəstəxanasında əmək fəaliyyətinə başlayan Böyükkişi Ağayev burada 1954-cü ilədək həkim-cərrah işləmişdir. O, 1954-1957-ci illərdə Moskva şəhərində İkinci Moskva Dövlət Tibb İnstitutunun cərrahiyyə üzrə aspiranturasında oxumuş, aspiranturanı bitirdikdən sonra, 1958-1960-cı illərdə Həştərxan Tibb İnstitutunun cərrahiyyə kafedrasının assistenti olmuşdur.

1960-cı ildə Bakıya qayıdan Böyükkişi Ağayev Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Onkologiya İnstitutunda əmək fəaliyyətini davam etdirərək 1967-ci ilədək İnstitutun cərrahiyyə şöbəsinin baş elmi işçisi və şöbə müdiri vəzifələrində çalışmışdır.

1968-ci ildə Azərbaycan Tibb Universitetinin hospital cərrahiyyə kafedrasına professor seçilən Böyükkişi Ağayev 1973-cü ildən ömrünün sonuna qədər universitetin ikinci cərrahi xəstəliklər kafedrasına rəhbərlik etmiş və bütün bu illər ərzində tibb kadrlarının hazırlanması işində mühüm xidmətlər göstərmişdir. O, eyni zamanda, 1988-1999-cu illərdə Elmi Tədqiqat Qastroenterologiya İnstitutunun, 1999-cu ildən etibarən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi Cərrahiyyə Mərkəzinin direktoru vəzifələrini tutmuşdur.

Böyükkişi Ağayev 1957-ci ildə namizədlik, 1966-cı ildə doktorluq dissertasiyalarını müdafiə etmiş, 1968-ci ildə professor elmi adına layiq görülmüşdür. O, 1980-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü seçilmişdir. Azərbaycanda tibb elminin yeni biliklərlə zənginləşdirilməsi və tədrisində akademik Böyükkişi Ağayevin xüsusi rolu və əməyi vardır. Respublikada cərrahi qastroenterologiya elmi məktəbinin yaradıcılarından olan alimin dəyərli tədqiqatları bu istiqamətdə fundamental araşdırmaların aparılması və onların müalicə işində tətbiqi üçün geniş imkanlar açmışdır. Alim eksperimental nəticələr əsasında təcrübi tövsiyələri və ixtiraları ilə tibb elminə təqdirəlayiq töhfələr vermişdir.

Böyükkişi Ağayev 400-dən artıq elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, üçcildlik "Cərrahi əməliyyatlar atlası"nın, dərslik, ixtiralar və səmərələşdirici təkliflərin müəllifidir. Ölkənin qastroenteroloq həkimlərinin bütöv bir nəsli Böyükkişi Ağayevin tədqiqatlarından bu gün mötəbər mənbə kimi istifadə etməkdədirlər. Alimin xarici dillərdə işıq üzü görən fundamental-nəzəri əhəmiyyətli əsərləri elmi ictimaiyyət arasında rəğbətlə qarşılanmışdır.

Böyükkişi Ağayevin rəhbərliyi ilə 9 tibb üzrə elmlər doktoru, 52 tibb üzrə fəlsəfə doktoru və çox sayda yüksəkixtisaslı cərrah qastroenteroloq hazırlanmışdır. Dünyanın bəzi tanınmış səhiyyə mərkəzlərində alimin yetirmələri hal-hazırda uğurla çalışmaqdadır. Böyükkişi Ağayev mötəbər beynəlxalq konfrans və simpoziumlardakı məzmunlu çıxış və məruzələri ilə Azərbaycanın müasir tibb elmini layiqincə təmsil etmişdir. Böyükkişi Ağayevin ictimai fəaliyyəti də səmərəli olmuşdur. O, bir sıra beynəlxalq elmi cəmiyyətlərin üzvü və 12-ci çağırış Azərbaycan Ali Sovetinin deputatı seçilmişdir. Akademik Böyükkişi Ağayevin ölkədə təbabətin inkişafı və həkim kadrların yetişdirilməsi sahəsində xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, müstəqil Azərbaycan Respublikasının ali mükafatlarından "Şöhrət" ordeni ilə təltif edilmişdir. Görkəmli alim, gözəl pedaqoq və qayğıkeş insan Böyükkişi Ağayevin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**İlham Əliyev**
**Mehriban Əliyeva**
**Artur Rasizadə**
**Oqtay Əsədov**
**Ramiz Mehdiyev**
**Əli Əhmədov**
**Hacıbala Abutalıbov**
**Oqtay Şirəliyev**
**Akif Əlizadə**
**Əhliman Əmiraslanov**
**Cəmil Əliyev**
**Ədilə Namazova**
**Fazil Qurbanov**
**Sudeyif İmamverdiyev**
**Gəray Gəraybəyli**

# Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının iclası keçirilib



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının aprelin 4-də iclası keçirilib. Dövlət Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda çıxış edən Fondun Himayəçilər Şurasının sədri Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Salman Musayev Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasını ölkədə mövcud dini konfessiyaların dəstəklənməsi, mənəvi dəyərlərin qorunması və inkişafı, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi sahəsində mühüm addım adlandırıb. Fondun Azərbaycanda sosial və mənəvi sahələrin inkişafına əvəzsiz töhfə verəcəyinə ümidvar olduğunu diqqətə çatdıran Şura sədri onun təsis edilməsinin ölkəmizdə milli-mənəvi dəyərlər sahəsinə göstərilən diqqət və qayğını bir daha sübut etdiyini vurğulayıb.

Himayəçilər Şurasının sədri iclasın gündəliyində duran məsələlər barədə məlumat verib. O, iclasda Fondun illik fəaliyyət planının, mənəvi dəyərləri təbliğ edən şəxslərə maddi dəstəyin göstərilməsi ilə bağlı Qafqaz Müsəlmanları İdarəsinin müraciətinin və Fondun xərclər smetasının layihəsinin müzakirə olunacağını qeyd edib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov xalqımızın mənəvi dünyasını zənginləşdirən, birliyimizi təmin edən milli-mənəvi dəyərlərin qorunub saxlanılmasının, təbliğ və təşviq edilməsinin mühüm məsələ olduğunu bildirib. O, Azərbaycan dövlətinin bu sahəyə diqqətinin milli-mənəvi irsimizin qorunması və inkişafına verilən önəmin göstəricisi olduğunu deyib. Fondun Nizamnaməsi barədə məlumat verən icraçı direktor görüləcək işlər, həyata keçirilməsi nəzərdə tutulan layihələr barədə danışıb.

Daha sonra Fondun gündəliyində duran məsələlər müzakirə edilib. Himayəçilər Şurasının üzvləri - deputat Sahibə Qafarova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Sofiyeva, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, "SƏS" Media Qrupun rəhbəri Bəhruz Quliyev Fondun illik fəaliyyət planı barədə fikirlərini səsləndiriblər, eyni zamanda, Fondun üzərinə düşən vəzifələrlə bağlı tövsiyələrini veriblər. Mənəvi dəyərlərin təbliğinin təşviqi məqsədilə respublikanın bölgələrini əhatə edəcək maarifləndirmə işinin aparılmasının, məqsədli proqramların hazırlanması və həyata keçirilməsinin, habelə bu sahədə sosial layihələrin reallaşdırılmasının, mənəvi dəyərlərin təbliğinə yönəlmiş ədəbiyyatların çapının və qısametrajlı filmlərin çəkilməsinin vacibliyi vurğulanıb. Sonda gündəlikdə əks olunan təkliflər səsə qoyularaq qəbul edilib.

# Düzgün seçim uğurlu inkişafa aparan yoldur



Azərbaycan Respublikasının Prezidenti seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı İsmayıllı rayon şöbəsi təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüş rayonun Qoşakənd kəndində keçirilib.

Tədbirdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahı İsmayıllı rayon şöbəsinin sədri Sevil Əhmədova bildirib ki, ötən 15 il ölkə həyatı üçün strateji əhəmiyyət daşıyan inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, ən müxtəlif sahələrdə intibah prosesinin geniş vüsət alması ilə səciyyəvidir.

Rayon şöbəsinin sədri tam əminliklə bildirib ki, Yeni Azərbaycan Partiyası seçkilərə böyük inamla gedir, partiyanın ötən seçkilərdə olduğu kimi, aprelin 11-də keçiriləcək prezident seçkilərində də qələbə qazanacağı mütləqdir. Görüşdə YAP Mərkəzi Seçki Qərargahı İsmayıllı rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Anar Nəbiyev, Zaur Muradov, Şəfaqət Rəsulov, Şəmsiyyə Əhmədova çıxış edərək, qeyd ediblər ki, Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünya miqyasında dinamik inkişaf tempinə malik olan ölkələr sırasında aparıcı yerlərdən birini tutur. Bu inkişafın əsasında uğurla, uzaqgörənliklə reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır.

Görüşdə seçicilər adından çıxış edən Qoşakənd kənd sakinləri Mehman Əşrəfov, Ziyəddin Mövlamov, Əlişir Süleymanov, Əflatun Baxışov xalqın rifahı və ölkənin inkişafı naminə gördüyü böyük işlərə görə, 11 aprel 2018-ci il tarixində seçki məntəqələrinə gələrək Cənab İlham Əliyevə səs verəcəklərini böyük ruh yüksəkliyi ilə bildiriblər.

## Nəsimi qadın seçiciləri əmin-amanlığın davamlı olmasına səs verəcəklər

Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Nəsimi rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun qadın seçiciləri ilə növbəti görüş keçirilib. Görüşü YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı açaraq, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan uğurlu dövlət siyasəti nəticəsində, ölkəmizin sosial-iqtisadi inkişafının yüksəliş mərhələsini yaşadığını bildirib. Qeyd edib ki, bütün sahələrdə olduğu kimi, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan qadın siyasəti də Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.





Rayon təşkilatı sədri ölkəmizdə hökm sürən firəvan həyatın, inkişafın, sülh və əmin-amanlığın davamlı olması üçün Nəsimi rayon qadınlarını partiyanın namizədinə səs verməyə çağırıb.

Görüşdə millət vəkili Ziyad Səmədzadə, YAP Qadınlar Şurasının sədr müavini, millət vəkili Sevinc Fətəliyeva və Nəsimi rayon Ağbirçəklər Şurasının sədri Zərifə Quliyeva çıxış edərək, Azərbaycan qadınının keçdiyi tarixi yola nəzər salıb, onun dövlətçilik qarşısında xidmətləri, xüsusilə də, müstəqilliyin ilk illərindən bugünədək olan fədakarlıqlarından danışıblar. Qeyd olunub ki, Azərbaycan qadını Prezident Cənab İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəkləyir. Azərbaycan qadınlarının adını şərəfli və uca tutan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətindən fəxrlə danışaraq, onu özlərinə nümunə kimi qəbul etdiklərini səsləndiriblər.

Çıxış edənlər seçiciləri 11 apreldə əmin-amanlığın, sabitliyin, inkişafın, təhlükəsizliyin davamlı olması üçün partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

# Şamaxı seçiciləri Cənab İlham Əliyevə səs verəcəklərinə əmindirlər

Şamaxı rayonunda Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Təbliğat-təşviqat kampaniyası





çərçivəsində rayonun Şəhriyar və Kələxana kəndlərində dünən keçirilən tədbirlərdə YAP Mərkəzi Seçki Qərargahı Şamaxı rayon şöbəsinin üzvləri Ağarza Bayramov, Səməd Fətəliyev, Güllü Babaşova, Hacıbaba Şıxıyev, Tünzalə Yusifova və Nəzakət Abdulrazaqova çıxış ediblər.

Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Şamaxı rayon şöbəsinin təbliğat qrupunun üzvü Tünzalə Yusifova qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daim uğurlar qazanıb, hazırda isə regionun lider ölkəsinə çevrilib və beynəlxalq aləmdə mövqeyi xeyli güclənib. T.Yusifova seçiciləri 11 aprel seçkilərində fəal iştirak etməyə, yenə də Cənab İlham Əliyevə səs verməyə çağırıb. Görüşdə çıxış edən təbliğat qrupunun üzvü Hacıbaba Şıxıyev, son 15 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmizin qazandığı uğurlardan bəhs edib və bildirib ki, Cənab İlham Əliyevə səs vermək tərəqqiyə, yüksəlişə və inkişafa səs vermək deməkdir.

Şəhriyar kənd sakinlərindən Mayıl Alcanov və Çingiz Dadaşov çıxış edərək, Cənab İlham Əliyevin yürütdüyü daxili və xarici siyasətin xalq tərəfindən, birmənalı şəkildə dəstəkləndiyini qeyd edərək, seçiciləri 11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində YAP-ın namizədi Cənab İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıblar. Kənd sakinləri çıxışlarında seçicilərin yalnız Cənab İlham Əliyevə səs verəcəklərinə əminlik ifadə ediblər və bildiriblər ki, Şamaxı seçicilərinin yeganə seçimi alternativsiz lider Cənab İlham Əliyevdir.




səs
www.sesqazeti.az
facebook Ses Media Holding
5 aprel 2018-ci il

# Xalq İlham Əliyevə "HƏ" deyir!

## Hər bir göyçaylının seçimi Cənab İlham Əliyevdir!





YAP Göyçay rayon təşkilatı aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə daha bir görüşünü Ləkçılpaq kəndində keçirib.

Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatının sədri Sahib Şükürov 11 aprel tarixində keçiriləcək prezident seçkilərinin dövlətimizin və xalqımızın həyatında mühüm siyasi hadisə olduğunu vurğulayıb. S.Şükürov qeyd edib ki, ölkəmizdə əmin-amanlığı təmin edən Prezident İlham Əliyevdir: "O, Azərbaycan xalqının firavan yaşaması, ölkəmizin milli maraqlarının təmin olunması üçün əlindən gələn hər şeyi edir. Bu baxımdan, bizlər də seçki günü öz fəallığımızı göstərməli və məntəqələrə gedib, partiyamızın alternativsiz namizədi İlham Əliyev Cənablarına səs verməliyik".

Görüşdə çıxış edən Milli Məclisin deputatı Elman Nəsirov vurğulayıb ki, aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti Cənab İlham Əliyevin namizədliyinin irəli sürülməsi xalq tərəfindən böyük sevinclə qarşılanıb. Belə ki, ötən 15 il ərzində Azərbaycan daim irəliləyib və regionun lider dövlətinə çevrilib: "Dövlət başçımız İlham Əliyevin qeyd etdiyi kimi, güclü Azərbaycan hamımızın qürur mənbəyidir. Azərbaycanın güclü olması üçün "İlhamla irəli" deyək və Cənab İlham Əliyevə səs verək".

Tədbirdə çıxış edən millət vəkili Sabir Hacıyev isə bildirib ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti, prinsipiallığı və beynəlxalq aləmdə böyük nüfuzu sayəsində Azərbaycan dünyanın siyasi və iqtisadi məkanında mövqeyini gündən-günə gücləndirir. "Xalqımız 11 aprel prezident seçkilərində Cənab İlham Əliyevə səs verməklə öz dövlətini qoruyacaq"-deyə qeyd edən deputat vurğulayıb.

Görüşdə çıxış edən kənd sakinləri Arif İsmayılov, Tahir İsmayılov, Məmmədova Aybəniz və başqaları çıxış edərək, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə yekdilliklə səs verəcəklərini bəyan edərək, hər kəsi seçki günü fəal olmağa çağırıblar.

## Ucarlı səhiyyə işçiləri: "Biz Cənab İlham Əliyevə səs verəcəyik"

Ucar rayonunda prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsi dünən səhiyyə işçiləri ilə görüş keçirib.

Görüşü giriş sözü ilə YAP Mərkəzi Seçki Qərargahı Ucar rayon şöbəsinin sədri Şəhla Abdullayeva açaraq bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində, Azərbaycan inkişaf yolunda uğurlu addımlarla irəliləyir. Azərbaycanın bütün sahələrdə çoxsaylı uğurlar əldə etməsini təmin edən amilin Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət olduğunu deyən rayon təşkilatının sədri qeyd edib ki, bu amili Ucarın





səhiyyə işçiləri də bu siyasətin ətrafında sıx birləşiblər.

Görüşdə təbliğat qrupunun üzvləri - Milli Məclisin deputatı Vüsal Hüseynov, Bakı Slavyan Universitetinin professoru, filologiya elmləri doktoru, "Əməkdar müəllim" Nizami Məmmədov və Rahib Rəsulov çıxış edərək, seçiciləri aprelin 11-də seçki məntəqələrinə gedərək, Azərbaycana böyük qələbələr və uğurlar qazandırmış, xalqımızın alternativsiz lideri Cənab İlham Əliyevə səs verməyə çağırdılar.

Səhiyyə işçiləri adından Səidə Ələkbərova çıxış edərək, qeyd edib ki, Cənab İlham Əliyev barədə formalaşan fikirlərdə və rəylərdə Onun xalqının lideri olması, insanları öz arxasınca uğur və qələbələrə doğru aparmaq qabiliyyətinə malik olması haqqında reallıqlar bütün mənalarda öz təsdiqini tapmaqdadır. "Cənab İlham Əliyev bizim tək liderimizdir və birmənalı olaraq, Ona səs verəcəyik"-deyə səhiyyə işçiləri adından danışan S.Ələkbərova vurğulayıb.

## QHT üzvlərinin seçimi Cənab İlham Əliyevdir!





11 aprel 2018-ci ildə ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatında qeyri-hökumət təşkilatlarının üzvləri ilə görüş keçirilib.

Tədbiri YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev açaraq, Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi ardıcıl və sistemli islahatlar, uğurlu daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə qazandığı uğurlardan bəhs edib. T.Tağıyev QHT nümayəndələrini Ulu Öndər Heydər Əliyev siyasətinin davamı naminə 11 aprel seçkilərində cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin Baş redaktoru Hikmət Babaoğlu çıxış edərək bildirib ki, YAP ümumxalq partiyasıdır və Cənab İlham Əliyev 700 mindən çox üzvü olan bir partiyanın namizədidir. "Bu isə, əslində, Azərbaycan xalqı deməkdir", - deyən Hikmət Babaoğlu söyləyib ki, Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev hər bir Azərbaycan vətəndaşının rifahı, onun inkişafı və gələcəyi üçün uğurlu siyasət həyata keçirir: "Hər şeydən öncə, Cənab Prezident Azərbaycanda ictimai-siyasi sabitliyi təmin edib, ölkəmizin milli maraqlarını qoruya bilib, mürəkkəb tarixi bir mərhələdə ətrafımızda terror hadisələrinin, müharibələrin və xaosun baş verdiyi bir vəziyyətdə Azərbaycanı sabitlik adası kimi qoruyub-saxlaya bilib. Eyni zamanda, ölkəmizi yüksək səviyyədə inkişaf etdirib və Azərbaycanda işsizliyin və yoxsulluğun səviyyəsi əhəmiyyətli dərəcədə azalıb. Həmçinin, son 15 ildə Azərbaycanın regionları dinamik inkişaf edib, dövlətimiz region və dünya ölkələri sırasında çox mühüm bir tərəfdaşa çevrilib. Buna paralel olaraq Cənab Prezident Azərbaycan Ordusunu da gücləndirib. Cənab İlham Əliyev Ali Baş Komandan kimi 2016-cı ilin aprel döyüşlərinə imza atıb. Bununla da, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ciddi hərbi-siyasi dönüşə nail olub. Beləliklə, sadalayacağımız çoxsaylı uğurlar, əlbəttə ki, 11 aprel seçkilərində Azərbaycan xalqının seçimini müəyyənləşdirəcək və xalq öz alternativsiz lideri olan Cənab İlham Əliyevi yenidən Prezident seçəcək".

Milli Məclisin deputatı, Azərbaycan Tələbə-Gənclər Təşkilatları İttifaqının sədri Şahin İsmayılov çıxış edərək bildirib ki, bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev gənclərin bütün arzularının reallaşması istiqamətində davamlı və qətiyyətli siyasət yürüdür: "Vətəndaşlarımızın sosial rifahının yüksəldilməsi istiqamətində davamlı tədbirlər görülür, pensiyalar artırılır və yeni iş yerləri yaradılır. Artıq bütün dünya dövlətləri ölkəmizi yaxın tərəfdaş qismində qəbul edir. Bu uğurların davamı naminə bütün vətəndaşlar 11 apreldə keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verməlidir".

Daha sonra qeyri-hökumət təşkilatlarının təmsilçiləri Nureddin Mehdiyev, Mirhəsən Seyidov, Fəxrəddin Həsənzadə, Fərid Şahbazlı, Əkbər Qoşalı, Nailə İsmayılova, fəal gənc Tamerlan Əkbərov və digərləri çıxış edərək, hər zaman olduğu kimi, bu seçki prosesində də fəal iştirak edəcəklərini və YAP tərəfindən irəli sürülmüş namizədi dəstəkləyəcəulərini vurğulayıblar.

## Şəki gənclərinin seçimləri İlham Əliyevdir!





11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Şəkidə 400 nəfər ilk dəfə səs verəcək gənclərlə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun iştirakı ilə görüş keçirilib. Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin sədri Həsən Həsənov açaraq, prezidentliyə namizəd Cənab İlham Əliyevin 2003-2018-ci illər ərzində ölkə Prezidenti kimi apardığı məqsədyönlü və uğurlu siyasəti barədə ətraflı söhbətlər aparıb.

Ardı Səh. 7

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli-Səh-6

O, əmin olduğunu bildirib ki, ilk dəfə səs verəcək gənclərimiz 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun üzvləri Kamil Məmmədov, Bədrəddin Sədiyev, Qabil Qədimov, Rafik Rəsulov, Yusif Şükürlü və Nuralı Çələbiyev çıxış edərək, prezidentliyə namizəd Cənab İlham Əliyevin həyat və fəaliyyəti, eyni zamanda, ölkəyə rəhbərlik etdiyi 15 il ərzində gördüyü işlər, Azərbaycan dövlətçiliyinin inkişafı və xalqımızın rifahı naminə xidmətləri barədə ətraflı məlumat verib, seçiciləri bu uğurların davam etdirilməsi üçün Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Tədbirdə çıxış edən gənc seçicilər artıq öz seçimlərini etdiklərini, 11 aprel tarixində Azərbaycan xalqının lideri Cənab İlham Əliyevə səs verəcəklərini vurğulayıblar.

### Göyçayın qadın seçiciləri Cənab İlham Əliyevə səs verəcəklər





Aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Göyçay rayon təşkilatı rayonun fəal qadın seçiciləri ilə görüş keçirib.

Görüşü giriş sözü ilə açan YAP Göyçay rayon təşkilatının sədri Sahib Şükürov qeyd edib ki, 11 apreldə partiyanın namizədi Cənab İlham Əliyev qələbə qazanacaq və müstəqil Azərbaycanımızı daha da gözəlləşdirəcək və inkişaf etdirəcək. "Xalqımız aprelin 11-də "İLHAMLA İRƏLİ" şüarı ilə seçkilərə qatılaraq, Cənab İlham Heydər oğlu Əliyevə səs verəcək"-deyə qeyd edən rayon təşkilatının sədri göyçaylı qadınların da bu seçkilərdə mütəşəkkil qaydada qatılacaqlarını, Yeni Azərbaycan Partiyasının alternativsiz namizədi İlham Əliyev Cənablarına səs verəcəyini vurğulayıb.

Görüşdə çıxış edən millət vəkili Sabir Hacıyev qeyd edib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu və zəngin xarici siyasət sayəsində, ötən müddət ərzində, Azərbaycanın ətrafında əlverişli xarici mühit formalaşdırılmış, xaricdən olan təzyiqlər, hədə və təhdidlər zərərsizləşdirilmiş, Azərbaycan öz milli maraqlarına xələl gətirmədən bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında bütün xoşniyyətli tərəfdaşlar üçün unikal əməkdaşlıq məkanına çevrilmişdir.

S.Hacıyev onu qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin siyasi varisi Cənab Prezident İlham Əliyev də təməli möhkəm siyasi baxışlarla qurulmuş dövlət-qadın siyasətinin uğurla həyata keçirilməsində mühüm tədbirlər həyata keçirmiş və bu proseslər davam etməkdədir.

Göyçay qadınları adından çıxış edən Zemfira Əliyeva, Leyla Məmmədova, Şəfəq Xəlilova və Kəmalə Səmədova, 11 apreldə seçiciləri fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırıblar. Natiqlər bildirdilər ki, respublikamızda dövlət-qadın siyasəti və Ulu Öndər Heydər Əliyevin bu istiqamətdə əsasını qoyduğu ənənələr ölkə Prezidenti Cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

### Sumqayıtlı seçicilər "İlhamla irəli" şüarı altında seçkilərə qatılacaq!

Aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı YAP Sumqayıt şəhər təşkilatının Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşü keçirilib.

Tədbirdə çıxış edən YAP Mərkəzi Aparatı Təbliqat Qrupunun üzvü, "SƏS" qəzetinin Baş redaktoru Bəhruz Quliyev qeyd edib ki, Azərbaycan Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan uğurlu daxili və xarici siyasət sahəsində Cənab İlham Əliyevin rəhbərliyi altında böyük inkişaf yolu keçərək, nəhəng uğurlar əldə edib. Belə ki, ötən 15 il ərzində onlarla regional və beynəlxalq layihələr həyata keçirilib, Azərbaycan dövləti istər təşəbbüskar, istərsə də iştirakçı qismində bir çox əhəmiyyətli mötəbər tədbirlərdə öz sözünü deyən müstəqil ölkə olaraq, liderlik mövqeyini nümayiş etdirib. "Əbəs deyil ki, istər daxili, istərsə də xarici siyasət cəhətindən Cənab İlham Əliyevin qazandığı çoxsaylı uğurlar xalqın daha firavan yaşamasına hesablanıb"-deyə qeyd edən Bəhruz Quliyev, həmçinin bildirib ki, bu gün ölkəmizdə mövcud olan xalq-iqtidar birliyinin təcəssümü də bu və bu kimi digər mühüm məqamlara söykənir.

"SƏS" qəzetinin Baş redaktoru B.Quliyev seçki günü bütün sumqayıtlıları fəal olmağa və Yeni Azərbaycan Partiyasının alternativsiz namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Tahir Mirkişili isə bildirib ki, Cənab İlham Əliyev bu günün, sabahın və






gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyasının lideridir. "Onun daxili və xarici siyasəti də Azərbaycanın xoş gələcəyinə təminat verir"-deyə qeyd edən T.Mirkişili bütün seçiciləri ürəklərinin hökmü ilə 2018-ci il aprelin 11-də keçiriləcək prezident seçkilərində xalqımızın yeganə namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Parlamentin deputatı Mirzəcan Xəlilov da son 15 ildə ölkədə aparılan uğurlu daxili və xarici siyasət və əldə edilən davamlı uğurlar barədə fikirlərini bildirərək, aprelin 11-də hər kəsi İlham Əliyev Cənablarına səs verməyə çağırıb.

Görüşdə YAP Sumqayıt şəhər təşkilatı idarə heyətinin, təbliğat qrupunun üzvü Təbrik Quliyev çıxışında əmin edib ki, sumqayıtlıların bir seçimi var - Cənab İlham Əliyev.

Sumqayıtlı seçicilər də, öz növbələrində, Cənab İlham Əliyevi, birmənalı olaraq, alternativsiz namizəd kimi gördüklərini qeyd edib, Azərbaycanın sürətli inkişafının gələcək təminatçısı kimi, məhz Cənab İlham Əliyevin fəaliyyətini vurğulayaraq, hamılıqla Ona səs verəcəklərini bildiriblər.

### Binəqədi rayonunda səhiyyə işçiləri ilə görüş keçirilib

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatında prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində səhiyyə işçiləri ilə görüş keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri, Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov bildirib ki, səhiyyəmizin inkişafında Ümummilli Liderin xalqın hər bir nümayəndəsinin gələcəyini düşünərək, gördüyü işlər öz dəyəri və böyüklüyü ilə əvəzsizdir. Ulu Öndər Heydər Əliyevin prezidentliyi dövründə səhiyyənin inkişafı istiqamətində mühüm addımlar atılıb. Bu gün də Prezident İlham Əliyev tərəfindən səhiyyənin inkişafına xidmət edən tədbirlərin həyata keçirilməsi davam etdirilir. R.Göyüşov çıxışının sonunda ölkə Prezidenti, xalqımızın ən etibarlı və alternativsiz Lideri Cənab İlham Əliyevin uğurlu siyasətinin növbəti 7 ildə də davam etdirilməsi ilə ölkəmizin qüdrətinin bundan sonra da artacağına əminliyini ifadə edib və bütün seçiciləri dövlət başçısı Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Milli Məclisin komitə sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov çıxışında bildirib ki, Azərbaycanda uğurla həyata keçirilən siyasi-iqtisadi islahatlar, bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsinin də dinamik inkişafına təkan verib. Ulu Öndər Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə səhiyyənin maddi-texniki imkanları genişləndirilib, qanunvericilik bazası möhkəmləndirilib. Təməli








Ulu Öndər tərəfindən qoyulmuş səhiyyə islahatları bu gün Cənab Prezident İlham Əliyev tərəfindən qətiyyətlə və uğurla davam etdirilir. E.İbrahimov görülən işlərin və qazanılan nailiyyətlərin bundan sonra da davam etdirilməsi üçün bütün seçiciləri qarşıdan gələn prezident seçkilərində Cənab İlham Əliyevi dəstəkləməyə və Ona səs verməyə dəvət edib.

Daha sonra Milli Məclisin deputatı Kamaləddin Qafarov çıxış edərək, qeyd edib ki, son 15 il ərzində Azərbaycanda inkişaf etmiş sahələrdən biri də, məhz səhiyyə sektorudur. Ölkə səhiyyəsi öz texniki təchizatı və imkanlarına görə, bu sahədə inkişaf etmiş ölkələrdən geri qalmır. Bu gün həm paytaxtımız Bakıda, həm də bölgələrimizdə ən müasir tələblərə cavab verən xəstəxanalar tikilir, ən müasir avadanlıqlarla təchiz edilərək və əhalinin istifadəsinə verilir. Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, bu gün səhiyyəmiz dünya standartları səviyyəsinə çatdırılıb.

Görüşdə, həmçinin səhiyyə sahəsində çalışan bir qrup seçici - Məlahət İbrahimova, Rəşad Zeynalov, Aysel Əkbərova, Loğman Əliyev çıxış edərək, səhiyyə sahəsinin inkişafı istiqamətində yaradılan yüksək şəraitdən danışıblar. 11 aprel prezident seçkilərində Cənab İlham Əliyevə dəstək olacaqlarını və səs verəcəklərini söyləyiblər.

Ardı Səh. 8

# Xalq İlham Əliyevə “HƏ” deyir!

Əvvəli-Səh-7

### Səbail rayon seçiciləri tərəqqiyə, sabitliyə “HƏ” deyir!





Dünən Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsi seçicilərlə “İLHAMLA İRƏLİ!” şüarı ilə növbəti görüşünü keçirib. SİA-nın verdiyi məlumata görə, görüşdə Milli Məclisin deputatı, YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin və rayon partiya təşkilatının sədri prof. Şəmsəddin Hacıyev, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, “Səs” Media Qrupunun rəhbəri Bəhruz Quliyev, “İki Sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, memarlıq doktoru, əməkdar memar Prof. Gülçöhrə Məmmədova, YAP Səbail rayon təşkilatının sədr müavini Afət Xanbabayeva, “Baktelekom” (Bakı Telefon Rabitəsi İstehsalat Birliyi) ərazi ilk partiya təşkilatının sədr müavini İsrafil Bəkirov, 11 saylı Uşaq Ağ Ciyər Xəstəlikləri Xəstəxanasının baş həkimi Nəriman Həsənov, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Hərbiləşdirilmiş Mühafizə İdarəsi”, bölmə rəisi Elman Nəbiyev, Teleradio İstehsalat Birliyi, Yeni texnologiyalar və inkişaf qrupunun rəisi Orxan Kərimov, Teleradio İstehsalat Birliyi, Yeni texnologiyalar və inkişaf qrupunun rəisi, YAP Səbail rayon təşkilatının Rayon Şurasının üzvü Svetlana Bayramova çıxış edərək seçicilərə YAP-ın vahid namizədi cənab İlham Əliyevin seçki proqramı haqqında ətraflı məlumat verdilər, son 15 ildə ölkəmizdə bütün sosial-iqtisadi sahələr üzrə əldə olunmuş möhtəşəm və misilsiz uğurlar haqqında danışdılar.

Çıxış edən Milli Məclisin deputatı, YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin və rayon partiya təşkilatının sədri prof. Şəmsəddin Hacıyev bildirdi ki, Azərbaycanın bu gün fəxr etdiyimiz və son 15 ildə qazanılmış bütün uğurları bilavasitə cənab İlham Əliyevin adı və Onun siyasətçi, dövlət xadimi kimi istər ölkə, istərsə də beynəlxalq ictimaiyyət arasında yüksək nüfuzunun olması ilə bilavasitə bağlıdır. Cənab İlham Əliyevə növbəti 7 il müddətinə mandat verilməsi ölkəmizdəki mövcud ictimai-siyasi sabitliyin qorunması, cəmiyyət həyatının bütün sahələrinin dinamik tərəqqisi, xalqımızın xoşbəxt gələcəyi və daha da qüdrətli Azərbaycan deməkdir. Vurğulandı ki, Möhtərəm Prezidentimiz, partiyamızın sədri və vahid namizədi cənab İlham Əliyev hər addımda Ulu Öndər Heydər Əliyev siyasi kursuna yüksək sadiqliyini nümayiş etdirir. Müasir Azərbaycanın dağılmaq, yox olmaq, müstəqilliyini itirmək uçurumundan xilas edən əbədiyaşar Heydər Əliyev siyasəti, xüsusi qətiyyəti, cəsarəti və xalqın birbaşa mənafelərinə xidmət etməsi ilə müsbət mənada seçilən İlham Əliyevin məharətli idarəçiliyi, xalqımızın Prezidentimizə olan ümumxalq məhəbbəti, etimadı və sonsuz dəstəyi ölkəmizdə sarsılmaz xalq-iqtidar birliyinin gələcəkdə daha da möhkəmlənməsi, əhalinin rifahının ilbəil yaxşılaşdırılmasına hədəflənmiş sistemli islahatların davamlılığı, ölkəmizdə dayanıqlı və müstəqil iqtisadi siyasətin aparılması deməkdir. Güclü iqtisadiyyatın cəmiyyət həyatının bütün sahələrinin inkişafının təminatçısı olduğunu qeyd edən deputat bildirdi ki, Azərbaycana bu günə kimi çox uğurlar gətirən bu düşünülmüş siyasət bundan sonra da xalqımıza xoşbəxtlik və dinamik tərəqqi vəd edir. Millət vəkili Səbail rayon seçicilərini 11 aprel prezident seçkilərində fəal olmağa, Prezidentimizə inam və etimadlarını səsləri ilə bir daha təsdiqləməyə çağırdı.

Milli Məclisin komitə sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov çıxışında bildirdi ki, tarixin bütün dövrlərində Azərbaycanın heç vaxt indiki qədər güclü və müstəqil olmayıb. Azərbaycanda aparılan müstəqil siyasət, uğurlu daxili islahatlar və balanslaşdırılmış xarici siyasət daha davamlı inkişafımıza əsaslı zəmin yaradır. Ölkəmizin daha da qüdrətlənməsinə, regionda olduğu kimi dünyada söz sahibinə çevrilməsinə mühüm təsir göstərir. Eldar İbrahimov çıxışının sonunda bütün seçiciləri cənab İlham Əliyevə səs verməyə dəvət etdi.

“İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Azərbaycanda bütün sahələrdə sürətli inkişaf getdiyini diqqətə çatdırıb. Qeyd edib ki, Prezident İlham Əliyev bütün fəaliyyətini Azərbaycan xalqının xoşbəxt gələcəyinə həsr edib. V.Rəhimzadə bildirib ki, Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevin son on beş ildə gördüyü işlər nəticəsində nəinki respublikamızın mərkəzi, bölgələri belə inkişaf baxımından dünyanın diqqətindədir.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, memarlıq doktoru, əməkdar memar Prof. Gülçöhrə Məmmədova rayon əhalisinin yaşlı təbəqəsinin güzəranından, dövlətin onlara göstərdiyi diqqət və qayğıdan söz açıb. O dövlətimizin daim gənclərə üstünlük verdiyini, onlara hər sahədə inkişaf etmələri üçün şərait yaradıldığını bildirib. Rayon gənclərini seçkilərdə fəal olmağa və xalqın alternativsiz liderinə səs verməyə çağırıb.

“SƏS” Media Qrupunun rəhbəri Bəhruz Quliyev diqqətə çatdırdı ki, Azərbaycan əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla reallaşdırılan daxili və xarici siyasət sayəsində böyük inkişaf, tərəqqi əldə edib. O, bütün seçiciləri prezident seçkilərində xalqımızın yeganə namizədi İlham Əliyevə səs verməyə çağırıb.

Media Qrupunun rəhbəri bildirib ki, xalqımız prezident seçkisi üçün artıq özünün qəti seçimini edib: “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıdakı seçkilərdə Azərbaycan xalqının mütləq əksəriyyətinin namizədidir. Uzaqgörən, müdrik və qədirbilən xalqımız növbəti dəfə də bu mühüm və qəti seçiminin böyük bəhrəsini görəcəkdir”.

Tədbirdə çıxış edən digərləri də ölkənin firavan gələcəyi naminə ən layiqli namizədə - cənab İlham Əliyevə səs verəcəklərini dilə gətirdilər.

### Sabitlik və inkişaf siyasətinə “HƏ” deyək

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qobustan rayon şöbəsi namizədliyi YAP tərəfindən irəli sürülən Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Qobustan rayon ağsaqqalları ilə görüş keçirib.

Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qobustan rayon şöbəsinin sədri Füzuli Gülaliyev Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi ardıcıl və sistemli islahatlar, uğurlu daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə qazandığı nailiyyətlərdən bəhs edib. O, qeyd edib ki, Azərbaycan 2003-cü ildən bu günə qədər hərtərəfli inkişaf yolu keçib, bütün sahələrdə çoxsaylı uğurlar əldə olunub və bunlar da, gələcəyə optimist baxmağa əsas yaradır.

Haqqa, ədalətə önəm verən, xalqını, vətənini dərin məhəbbətlə sevən, fəaliyyəti ilə əməlləri bir olan Liderə, qətiyyətli rəhbərə, müdrik siyasətçi İlham Əliyevə həmişə arxalandıqlarını diqqətə çatdıran Füzuli Gülaliyev Qobustan rayon ağsaqqallarını Ulu Öndər Heydər Əliyev siyasətinin davamı naminə 11 aprel seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.





Görüşdə çıxış edən Azərbaycan Milli Elmlar Akademiyasının Riyaziyyat-Mexanika İnstitutunun direktoru Misir Mərdanov bildirib ki, bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev vətəndaşların arzularının reallaşması istiqamətində davamlı və qətiyyətli siyasət yürüdür və bu səbəbdən, Azərbaycan qısa müddətdə iqtisadi-siyasi cəhətdən regionun lider dövlətinə çevrilib və hərbi potensialımız olduqca yüksək səviyyədədir. Misir Mərdanov, xüsusilə qeyd edib ki, bütün bunlar Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün Prezidentimiz tərəfindən uğurla davam etdirilən siyasi kursun uğurlarıdır və bu uğurların davamı naminə hər bir seçici 11 apreldə keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verməlidir.

YAP Qobustan rayon təşkilatı Ağsaqqallar Şurasının sədri Şıxbala Bayramov çıxış edərək bildirib ki, rayon ağsaqqalları özlərini heç vaxt ölkəmizdəki inkişaf proseslərindən kənarda hiss etməyib, ağsaqqalların hüquqlarının qorunması, onların sosial vəziyyətinin yaxşılaşdırılması dövlətin əsas prioritetlərindən biri olub və rayon ağsaqqalları bütün bunları nəzərə alaraq, prezident seçkilərində yaxından iştirak edərək, xalqın namizədi olan Cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə çıxış edən ağsaqqal seçicilərdən Hacı Həqiqət Rəcəbov, Hacı Bayram Baloğlanov, Əlisəfa Cəbiyev, Təhmuraz Ağaquliyev, Babaxan Xocaməmmədov Kəlbalı və başqaları ölkə vətəndaşlarının o cümlədən, rayon ağsaqqallarının prezident seçkilərində yaxından iştirak edərək, ən layiqli namizəd olan Cənab İlham Əliyevə səs verəcəklərinə əminlik bildiriblər.

### Göyçaylılar Cənab İlham Əliyevə səs verəcəklər!

YAP Göyçay rayon təşkilatı təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşlərini uğurla davam etdirir. Kampaniya çərçivəsində növbəti görüş rayonun Şəhadət, Qarabağlar və Ərəbcəbrli kənd sakinləri ilə keçirilib.

Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Göyçay rayon şöbəsinin sədri Sahib Şükürov 11 aprel tarixində keçiriləcək prezident seçkilərinin dövlətimizin və xalqımızın həyatında mühüm siya-

# Xalq İlham Əliyevə "HƏ" deyir!













si hadisə olduğunu bildirib. Qeyd olunub ki, Cənab İlham Əliyevin Prezidentliyi dövründə Azərbaycan bütün sahələrdə misilsiz nailiyyətlər qazanıb. S.Şükürov seçki günü seçiciləri fəal olmağa və məntəqələrə gedərək, Yeni Azərbaycan Partiyasının alternativsiz namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən Milli Məclisin deputatı Elman Nəsirov isə bildirib ki, Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan nəhəng inkişaf yolu keçib və ölkəmiz regionun lider dövlətinə çevrilib. E.Nəsirov onu da bildirib ki, bəzi anti-Azərbaycan təbliğatı aparan ermənipərəst qüvvələr var ki, Azərbaycanın bu sabitliyini, təhlükəsizliyini, əldə etdiyi uğurları, inkişafı gözləri götürmür və bu qüvvələr özlərini mühacir adlandıraraq, xaricə qaçmış Orduxan Teymurxan elə əslən göyçaylı olan Məhəmməd Mirzəli, Tural Sadıqlı kimi vətəndaşlarımızdan istifadə edərək, ölkəmizdəki yaradılmış sabitliyi və rahatlığı pozmağa çalışırlar: "Bildirmək istəyirəm ki, bu qüvvələr heç zaman öz çirkin niyyətlərinə çata bilməyəcəklər. Çünki Azərbaycanda xalqla iqtidar arasında birlik, bərabərlik və qarşılıqlı dəstək var".

Elman Nəsirov, əmin olduğunu bildirib ki, bütün göyçaylılar ən layiqli namizəd Cənab İlham Əliyevə səs verəcəklər".

Daha sonra çıxış edən millət vəkili Sabir Hacıyev bildirdi ki, xalqımız 11 aprel prezident seçkilərində Cənab İlham Əliyevə səs verməklə xoş gələcəyə və tərəqqiyə səs vermiş olacaq. Ona görə ki, xalqımızın fəxri, böyük və qətiyyətli dövlət başçısı Cənab İlham Əliyev ölkə vətəndaşlarının ümid və qürur mənbəyidir.

Tədbirdə çıxış edən kənd sakinləri Ərəstun Kərimov, Rübabə Şərifova, Sevda Hüseynova və başqaları əminliklə vurğulayıblar ki, Cənab İlham Əliyev Azərbaycanı uğurlu gələcəyə aparan müdrik siyasətçidir və göyçaylıların, birmənalı olaraq dəyişməz seçimidir. "Bütün göyçaylılar hamılıqla Cənab İlham Əliyevə səs verəcəklər" deyə kənd sakinləri vurğulayıblar.

### Şəkililərin seçimi Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevdir

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 2344 nəfər əhalisi və 1389 nəfərdən yuxarı seçicisi olan Şəki rayonu Şorsu kəndində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun iştirakı ilə seçicilərlə görüş keçirilib. Görüşü giriş sözü ilə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin baş məsləhətçisi Kamil Məmmədov açaraq, prezidentliyə namizəd Cənab İlham Əliyevin 2003-2018-ci illər ərzində ölkə Prezidenti kimi gördüyü nəhəng işlərdən danışıb. K.Məmmədov, əmin olduğunu bildirib ki, Şorsu kənd seçiciləri 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində fəal iştirak edərək, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun üzvləri Qabil Qədimov və Nuralı Çələbiyev çıxış edərək, prezidentliyə namizəd Cənab İlham Əliyevin həyat və fəaliyyəti, eyni zamanda, ölkəyə rəhbərlik etdiyi 15 il ərzində gördüyü işlər, Azərbaycan dövlətçiliyinin inkişafı və xalqımızın rifahı naminə xidmətləri barədə ətraflı məlumat verib, seçiciləri bu uğurların davam etdirilməsi üçün Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Tədbirdə çıxış edən kənd sakinləri, artıq öz seçimlərini etdiklərini, 11 aprel tarixində xalqımızın layiqli oğlu İlham Əliyevə səs verəcəklərini vurğulayıblar.

### Ucarlı seçicilər rifaha, inkişafa doğru - "İLHAMLA İRƏLİ" deyirlər!

Dünən prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsi rayonun Müsüslü kəndində mitinq keçirib. Mitinqi giriş sözü ilə YAP Mərkəzi Seçki Qərargahı Ucar rayon şöbəsinin və YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva açaraq, Cənab İlham Əliyevin misilsiz xidmətləri haqqında məlumat verib. Ş.Abdullayeva bildirib ki, Prezident İlham Əliyev düşünülmüş islahatları və müdrik qərarları ilə həyatımıza yeni nəfəs gətirib, Azərbaycanı dünyanın inkişaf edən ölkələri sırasına çıxarıb.

Şəhla Abdullayeva bunları nəzərə alaraq, seçiciləri aprelin 11-də seçki məntəqələrinə gedərək, Azərbaycana böyük qələbələr və uğurlar qazandırmış xalqımızın alternativsiz lideri Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Təbliğat qrupunun üzvləri - Milli Məclisin deputatı Vüsal Hüseynov, Bakı Slavyan Universitetinin professoru, "Əməkdar müəllim" Nizami Məmmədov və Alı Babayev çıxış edərək, bütün seçiciləri konstitusion hüquqlarından istifadə edərək, Azərbaycan dövlətinin gələcək inkişafı üçün çox mühüm əhəmiyyət kəsb edən bu seçkilər prosesində fəal iştirak etməyə, aprelin 11-də seçki məntəqələrinə gedərək, Azərbaycana böyük qələbələr və uğurlar qazandırmış xalqımızın alternativsiz lideri Cənab İlham Əliyevə səs verməyə çağırıblar. Seçicilər adından Qaraqız Qafarova və Vahid Həmidov çıxış edərək, bildiriblər ki, Cənab İlham Əliyevə səs vermək möhtəşəm nailiyyətlərin davamlı olmasına səs vermək, iqtisadiyyatımızın daha da inkişafına, vətəndaşlarımızın həyat səviyyəsinin daha da yüksəlməsinə, işğal altında olan torpaqlarımızın yaxın gələcəkdə azad edilməsinə səs vermək deməkdir. Çıxış edənlər 11 aprel tarixində baş tutacaq seçkilərdə Cənab İlham Əliyevin namizədliyini yekdilliklə müdafiə edəcəklərini bəyan ediblər.

### Zərdablılar qələbələrin qarantı - Cənab İlham Əliyevə "HƏ" deyirlər!





11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində tədbirlər Zərdab rayonunda da uğurla davam etdirilir.

Ardı Səh. 10

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli-Səh-10

Görüşü YAP Xaçmaz rayon təşkilatının sədr müavini Abasyar Heydərov açaraq ölkə başçısının düşünülmüş siyasəti nəticəsində respublikada hərtərəfli inkişafın müşahidə olunduğunu bildirib. Qeyd edib ki, Cənab İlham Əliyevin 15 illik hakimiyyəti dövründə Azərbaycan dövləti regionun ən qüdrətli ölkəsinə çevrilmişdir: "Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində, Azərbaycanın hər bir guşəsi abadlaşır və gözəlləşir. Məhz ölkədə gedən abadlıq-quruculuq prosesi Xaçmaz rayonundan da yan keçməmişdir. Bütün görülən işlər insanların maddi rifahının yüksəlməsinə və rahatlığını təmin etməyə hesablanıb".

A.Heydərov bu uğurlara, sosial rifaha, gələcəyimizin işıqlı sabahlarına görə seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə seçicilərdən Ənvər Mehyəddinov, Razim Davudov, rayon şöbəsi təşviqat qrupunun üzvlərindən Süreyyə Əmirova, Əli Mustafayev və başqaları çıxış edərək həyata keçirilən quruculuq işlərindən, ölkəmizdə gedən dinamik inkişafdan danışıblar. Onlar, birmənalı tərzdə bildiriblər ki, Cənab İlham Əliyevin düşünülmüş siyasətini dəstəkləyən xaçmazlılar öz tarixi seçimlərini 11 aprel günü məntəqələrə gələrək, Cənab İlham Əliyevə səs verməklə təsdiqləyəcəklər.

### Ağdaşlı təhsil işçiləri "İlhamla irəli" deyir






Aprelin 11-də keçiriləcək prezident seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Cənab İlham Heydər oğlu Əliyevin Ağdaş rayonunda təbliğat-təşviqat kampaniyası uğurla davam etdirilir. Növbəti görüş rayonun təhsil işçiləri ilə keçirilib.

Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının sədri, millət vəkili Cavid Osmanov son illər ərzində ölkənin təhsil sistemində aparılan köklü islahatlardan və qazanılan müsbət nəticələrdən danışıb. C.Osmanov son 15 ildə təhsilə ayrılan xərclərin 8,5 dəfə artdığını və bu günədək ölkədə tikilən 3100 məktəb binasından Ağdaş rayonunun da payına düşdüyünü qeyd edib. Rayon təşkilat sədri seçiciləri görülən işlərin davamlı olması üçün Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən millət vəkili Elman Nəsirov ölkə başçısının təhsilə olan diqqət və qayğısından danışaraq, son illər bu sahədə həyata keçirilən uğurlu islahatların, yeniliklərin məntiqi nəticəsi olaraq, Azərbaycan təhsilinin dünya standartlarına tələblərinə cavab verdiyini bildirib.

Seçicilər adından çıxış edən Anar İbrahimov, Dursun Əliyeva, Aqşin Kərimli, Elşən Vaqifzadə, Bilqeyis Muxtarova ölkədə təhsilə göstərilən diqqət və qayğının yüksək səviyyədə olmasından, ölkə başçısı Cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində, müasir tipli məktəb binalarının tikilərək istifadəyə verilməsindən, eləcə də, təhsilin keyfiyyətinin artırılması məqsədi ilə tətbiq olunan yeniliklərdən söz açıblar. Ağdaşda da son illər xeyli sayda məktəb binasının tikilməsi gələcək nəsillərin daha yüksək səviyyədə təhsil almaları və eyni zamanda, bu gün təhsil işçiləri üçün əlverişli iş şəraitinin yaradılması üçün ölkə başçısı Cənab İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirərək, ağdaşlı təhsil işçilərinin 11 aprel tarixində də yekdilliklə Cənab İlham Əliyevə səs verəcəklərini bəyan ediblər.

### Balakən seçiciləri Cənab İlham Əliyevə "HƏ" deyir






Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsinin təbliğat qrupu prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun aktiv qadınları və gəncləri ilə görüş keçirdi. Görüşü Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsinin sədri Azad Balayev giriş sözü ilə açaraq, Cənab İlham Əliyevin 15 il ərzində ölkəmizə rəhbərliyi dövründə həyata keçirilən islahatlardan, sosial-iqtisadi inkişafdan və beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun artmasından danışdı. Bildirdi ki, Prezident İlham Əliyev hər zaman qadınlara xüsusi diqqət və qayğı göstərib, onların yüksək dövlət vəzifələrinə irəli çəkilməsində böyük etimad göstərib. A.Balayev bu uğurların və əldə edilən nailiyyətlərin davam etdirilməsi üçün seçiciləri fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsinin təbliğat qrupunun üzvü Ömər Osmanov çıxış edərək, rayonun aktiv qadınlarının ictimai-siyasi fəaliyyəti, rayonun ictimai həyatında qadınların rolu və gənc nəslin tərbiyə edilməsində qadın amilinin vacibliyindən danışıb. Bildirib ki, Möhtərəm Prezidentimiz İlham Əliyev öz çıxışlarında, həyata keçirdiyi tədbirlərdə qadınların, o cümlədən, Balakən qadınlarının rolunu yüksək qiymətləndirib. O, 11 apreldə baş tutacaq seçkilərdə Balakən qadınlarının, aktiv gənclərinin, həmişə olduğu kimi, bu dəfə də fəal olacağını və Cənab İlham Əliyevə səs verəcəklərini bildirdi. Tədbirdə gənclər adından çıxış edən Çinarə Bazarova 11 aprel seçkilərində Balakən gənclərinin yekdillik nümayiş etdirərək, Cənab İlham Əliyevə səs verəcəklərini bildirib.

### Xaçmazlılar gələcək inkişafa səs verəcəklər

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Xaçmaz rayon şöbəsi 11 aprel tarixində keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyasını uğurla davam etdirərək, rayonun Nərəcan kənd seçiciləri ilə növbəti görüş keçirmişdir.

Görüşü YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev açaraq, ölkə başçısı İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə reallaşan iri yerli və regional layihələr sayəsində Azərbaycanın iqtisadi nəticələri ilə aparıcı dövlətlər sırasında yer aldığını bildirib: "2003-cü ildən həyata keçirilən sosial-iqtisadi inkişaf siyasəti nəticəsində, ölkəmizdə inkişafın davamlılığı təmin olunub". Rayon təşkilatı sədri əldə edilən uğurların məntiqi olaraq Azərbaycanın dünyanın aparıcı dövlətinə, eləcə də beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrildiyini bildirib.

N.Ağayev xaçmazlı seçiciləri gələcəyimizin daha yeni





qələbələrə və uğurlara imza atması üçün YAP-ın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə kənd seçicilərindən Yəhyayev Hacıağa, Davudov Rasim, Mustafayev Əli və başqaları çıxış edərək, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin fəaliyyəti nəticəsində, ölkəmizin hərtərəfli inkişaf etdiyini, Azərbaycanın dünyada sabitlik adasına çevrildiyini diqqətə çatdırıblar. Seçicilər Azərbaycanın bugünkü reallıqlarını nəzərə alaraq, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

### Qusar rayon təhsil işçiləri İlham Əliyev siyasətinə səs verəcəklər





Dünən YAP Mərkəzi Seçki Qərargahının Qusar rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası çərçivəsində rayonun təhsil işçiləri ilə görüş keçirilib. Görüşdə YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov çıxış edərək, ölkədə iqtisadiyyatın inkişafı üçün həyata keçirilən layihələrdən, qeyri-neft sektorunun ildən-ilə inkişafından, insanların yaşayış səviyyəsinin yüksəlməsindən danışaraq, bütün sahələrdə olduğu kimi, təhsilə də dövlət tərəfindən böyük diqqət ayrıldığını diqqətə çatdırıb. Qeyd edib ki, ölkəmizdə son 15 ildə təhsilin inkişafı üçün mühüm olan dövlət proqramları qəbul edilib, islahatlar aparılıb. Rayon təşkilatı sədri təhsil işçilərini seçkilərdə fəal şəkildə iştirak etməyə və partiyanın prezidentliyə namizədi Cənab İlham Əliyev tərəfindən aparılan uğurlu daxili və xarici siyasətə səs verməyə səsləyib.

Ardı Səh. 12

# Xalq İlham Əliyevə “HƏ” deyir!

Əvvəli-Səh-9

Dünən növbəti iki görüş rayonun Məlikli, Burunlu, Sarıqaya və Qoruqbağı kəndlərinin seçiciləri ilə keçirilib. Görüşdə YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova çıxış edərək, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin apardığı məqsədyönlü və düşünülmüş daxili və xarici siyasətindən, həyata keçirdiyi uğurlu iqtisadi islahatlardan, ölkəmizdə, o cümlədən, rayonumuzda gedən abadlıq-quruculuq işlərindən danışıb, seçiciləri Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyev Cənablarına səs verməyə çağırıb.

Görüşdə çıxış edən Milli Məclisin deputatı Jalə Əliyeva Cənab İlham Əliyevin fəaliyyəti dövründə ölkəmizin əldə etdiyi inkişafdan danışıb və bu inkişafın davamlı olması üçün seçiciləri partiyamızın namizədinə səs verməyə çağırıb.

Növbəti çıxış edənlər - Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Zərdab rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Gülağa İsgəndərov, Cəvahir İsmayılova, Vüsalə Kərimova və Mübariz Umarov ölkəmizin əldə etdiyi uğurlardan və bütün bunların xalqımızın qeyrətli oğlu Cənab İlham Əliyevin yorulmaz fəaliyyətinin nəticəsi olduğundan söhbət açaraq, seçiciləri bütün bu nailiyyətlərin, qələbələrin təminatçısı və qarantı olan Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıblar.

Görüşlərdə seçicilər adından çıxış edən kənd sakinləri artıq öz seçimlərini müəyyənləşdirdiklərini, seçki günü məntəqələrə gələrək Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

### Qubalıların seçimi dəyişməzdir - “İLHAMLA İRƏLİ”





Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsi 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun II Nügədi və Qırmızı-Qəsəbə inzibati-ərazi dairələrinin seçiciləri ilə növbəti görüş keçirib.

Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsinin sədri Yusif Abidov çıxış edərək, ölkəmizi qüdrətli dövlətlər sırasına çıxaran Ulu Öndər Heydər Əliyev kursunun layiqli davamçısı Cənab İlham Əliyevin rəhbərliyi ilə 15 il ərzində həyata keçirilən sosial-iqtisadi uğurlara nəzər salıb. 11 aprel tarixində keçiriləcək prezident seçkilərinin Azərbaycanda demokratiyanın növbəti təntənəsi olacağını vurğulayan rayon təşkilatı sədri, azad, ədalətli və şəffaf şəraitdə keçiriləcək bu seçkilərdə də xalqın iradəsinin qələbə qazanacağına əminliyini ifadə edib.

Y.Abidov seçiciləri güclü və zəngin ölkələr sırasında olmaq üçün gələcəyimizin qarantı Cənab İlham Əliyevə səs verməyə çağırıb. O, çıxışını “Yaşasın Cənab İlham Əliyevin rəhbərliyi ilə zirvələr fəth edən müstəqil Azərbaycan!” şüarı ilə başa çatdırıb.

Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsinin təbliğat qrupunun üzvləri Elza Orucova, Allahverdi Xudaverdiyev və Hüseyn Kərimov çıxış edərək, bildiriblər ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev respublikanı dünya miqyasında şöhrət qazanan müasir dövlət səviyyəsinə qaldırıb. Qeyd olunub ki, yüksək intellekti, siyasi hazırlığı, qətiyyəti və uğurlu diplomatiyası ilə Cənab İlham Əliyev Azərbaycan prezidentliyinə alternativi olmayan namizəddir. Quba rayon seçiciləri də çıxışlarında “İlhamla irəli” şüarını əsas tutaraq, öz seçimlərini dəyişmədiklərini və 11 apreldə partiyanın namizədi Cənab İlham Əliyevə səs verəcəklərini vurğulayıblar.

### Ucarlı qadınlar yekdilliklə Cənab İlham Əliyevə səs verəcəklər!





Dünən Ucar rayonunda prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsinin rayon qadınları ilə görüş keçirib.

Görüşü giriş sözü ilə YAP Mərkəzi Seçki Qərargahı Ucar rayon şöbəsinin və YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva açaraq bildirib ki, xalqımız 11 aprel prezident seçkilərində Cənab İlham Əliyevə səs verməklə xoş gələcəyə və tərəqqiyə səs vermiş olacaq: “Ona görə ki, xalqımızın fəxri, böyük və qətiyyətli dövlət başçısı Cənab İlham Əliyev ölkə vətəndaşlarının ümid və qürur mənbəyidir. Cənab İlham Əliyev Azərbaycan xalqının alternativsiz lideridir və cəmiyyət yekdilliklə Onun siyasətini dəstəkləyir”.

Təbliğat qrupunun üzvləri Milli Məclisin deputatı Vüsal Hüseynov, Bakı Slavyan Universitetinin professoru, “Əməkdar müəllim” Nizami Məmmədov və Yaqut Zeynalova çıxış edərək, Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə əldə edilən nailiyyətlərdən bəhs edərək, seçki günü hər kəsi fəal olmağa və Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Qadınlar adından Yeganə Süleymanova çıxış edərək bildirib ki, Prezident İlham Əliyevin cəsarətli və müdrik siyasəti sayəsində bugünkü qüdrətli Azərbaycan mövcuddur. “Cənab İlham Əliyev Azərbaycanı uğurlu gələcəyə aparan müdrik siyasətçidir”-deyə qeyd edən Y.Süleymanova vurğulayıb ki, bütün Ucar qadınları hamılıqla 11 apreldə Cənab İlham Əliyevə səs verəcəklər.

### Qax seçicilərinin devizi “İlhamla irəli”dir

Yeni Azrəbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qax rayon şöbəsi YAP tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Cəlayir və Sarıbaş kəndlərinin seçiciləri ilə görüş keçirib.

Görüşdə çıxış edən YAP Qax rayon təşkilatının sədri Nizami Əhmədov 2003-cü ildən bu günə qədər Möhtərəm Prezidentin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyasının hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin etdiyini bildirib. Azərbaycanda iqtisadi inkişafın uğurla aparıldığını bildirən rayon təşkilatı sədri beynəlxalq aləmdə də ölkəmizin mövqeyinin daha da gücləndiyini diqqətə çatdırıb: “Dövlət başçımızın apardığı siyasətin nəticəsidir ki, bu gün xalqımız firavan həyat keçirir. Biz ölkəmizin





dinamik inkişafını təmin edən Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycana beynəlxalq aləmdə böyük nüfuz qazandıran Cənab İlham Əliyevin namizədliyini dəstəkləyir və cəmiyyətimizin bütün üzvlərini Onun ətrafında sıx birləşməyə çağırırıq”.

Görüşdə çıxış edən Milli Məclisin deputatı Azər Kərimli Azərbaycanın qısa bir zaman məsafəsində qazandığı nailiyyətlərdən, əldə olunan uğurlardan danışaraq, həyata keçirilən layihələr nəticəsində, Azərbaycanın beynəlxalq aləmdə sabit və dinamik iqtisadi inkişafa malik ölkə kimi tanındığını bildirdi: “Bu gün müstəqil Azərbaycan dövlətinin siyasi dəst-xətti və inkişaf yolu vardır. Azərbaycan Prezidenti İlham Əliyevin əhalinin sosial rifahının yüksəldilməsi məqsədi ilə imzaladığı sərəncamlar insanların həyat səviyyəsinin yüksəldilməsinə yönəldilmiş diqqətdir. Ölkəmizdə abadlıq-quruculuq işləri geniş vüsət alıb”. O, ölkə əhalisinin gələcək rifahının təminatı üçün qaxlı seçiciləri əmin-amanlığa və sabitliyə səs verməyə çağırıb. Görüşdə seçicilərdən Xalid Heydərov, Bəşir Nəsirov, Səbuhi Babayev çıxış edərək, qeyd ediblər ki, Azərbaycanda gedən inkişafın bariz nümunəsini elə Qax rayonunda da görmək olar. Hər yerdə tikinti-quruculuq işləri aparılır, yeni obyektlər tikilib istifadəyə verilir. Seçicilər bu reallıqları nəzərə alaraq, 11 apreldə öz səslərini bu inkişafın davamına - Cənab İlham Əliyevə verəcəklərini bildiriblər.

### Azərbaycanın parlaq sabahı Cənab İlham Əliyevlədir!





Dünən YAP Mərkəzi Seçki Qərargahının Xaçmaz rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası çərçivəsində rayonun xidmət təşkilatları ilə görüş keçirilib.

*Ardı Səh. 11*

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli-Səh-11

Görüşdə çıxış edən Milli Məclisin üzvü Azər Badamov və YAP Qusar rayon təşkilatının sədr müavini Nadirşah Şirinov Azərbaycanda uğurla həyata keçirilən intellektual potensialın inkişaf etdiyini və Prezident İlham Əliyevin elmə və təhsilə daim diqqət göstərdiyini bildiriblər. Azərbaycanda neft kapitalının intellektual kapitala çevrilməsi istiqamətində böyük işlərin görüldüyünü deyərək, təhsil işçilərini 11 apreldə Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Seçicilər adından çıxış edən Rəvanə Ağamirova, Rüxsarə Məmmədova, Nəzifə Sultanova və Əminə Cəfərova 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində birmənalı olaraq, Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Oğuzlu gənclər Cənab İlham Əliyev siyasətini dəstəkləyir





Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Oğuzda gənclərlə növbəti görüş keçirilib.

Görüşü giriş sözü ilə YAP Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsinin sədri Saleh Məhərrəmov açaraq, bildirib ki, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 15 ildə möhtəşəm tarixi nailiyyətlər əldə olunub. Təşkilat sədri ölkə başçısı tərəfindən reallaşdırılan uğurlu daxili və xarici siyasətin ölkəmizin xoşbəxt gələcəyinin, xalqımızın firavan güzəranının etibarlı təminatçısı olduğunu vurğulayıb. S.Məhərrəmov əminliklə qeyd edib ki, növbəti seçkilərdə də xalq bu reallıqları nəzərə alaraq, Cənab İlham Əliyevə səs verəcək.

Tədbirdə YAP Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Mehman Ramazanov çıxışında Cənab İlham Əliyev tərəfindən gənclərə göstərilən diqqət və qayğıdan danışıb. Gənclərin sağlam həyat yaşaması, onların elm, təhsil, idman və digər sahələrdə fəaliyyət göstərməsi üçün bu gün dövlətimiz tərəfindən böyük imkanlar yaradıldığını iştirakçıların diqqətinə çatdırıb. M.Ramazanov qeyd edib ki, həmişə olduğu kimi, gənclər növbəti prezident seçkilərində də xüsusi fəallıq göstərəcəklər. Əldə olunanuğurların nəticəsi olaraq, gəncləri 11 apreldə partiyamızın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Ramiz Mahmudov və Emin Əzimli dövlətimiz tərəfindən gənclər üçün geniş meydan açıldığını və imkanlarının üzə çıxmasına əlverişli şərait yaradıldığını bildiriblər. Çıxış edənlər əminliklə qeyd ediblər ki, oğuzlu gənclər də, bu siyasətin davamlı olması üçün bir nəfər kimi, Yeni Azərbaycan Partiyasının namizədi, Cənab İlham Əliyevə səs verəcəklər.

Görüşdə çıxış edən, seçicilərdən Yeganə Süleymanlı və Həqiqət Rəsulova bildirib ki, 11 aprel 2018-ci il tarixdə keçiriləcək seçkilərdə oğuzlu gənclər, Yeni Azərbaycan Partiyasının namizədi, Cənab İlham Əliyevə səs verəcəklər.

Daha sonra görüşdə çıxış edən Milli Məclisin komitə sədri Aqiyə Naxçıvanlı qeyd edib ki, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dönəmdə Azərbaycan hərtərəfli və sürətli inkişaf tempi əldə edib. O, gəncləri 11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində YAP-ın namizədi İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıb.

## Zaqatalalılar güclü Liderə səs verəcəklər





Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Zaqatala rayon şöbəsi 11 aprel prezident seçkilərində YAP-ın namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşləri uğurla davam etdirir. 300 seçicinin iştirak etdiyi növbəti görüş rayonun Əliabad qəsəbəsində keçirilib.

Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Zaqatala rayon şöbəsinin sədri Habil Qurbanov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində, Azərbaycan bütün sahələrdə uğurlar qazanıb: "Həyata keçirilən irimiqyaslı infrastruktur layihələr, ölkəmizin beynəlxalq miqyaslı tədbirlərə uğurla ev sahibliyi etməsi, regionların sosial-iqtisadi inkişaf proqramlarının reallaşması, demokratik idarəçilik mexanizmlərinin tətbiqi, vətəndaş cəmiyyətinin qurulması, hüquqi təsisatların bərqərar edilməsi, ən müxtəlif sahələr üzrə etibarlı beynəlxalq tərəfdaş imicinin qazanılması inkişaf edən müasir Azərbaycanın reallıqlarıdır". Rayon şöbəsinin sədri zaqatalalıları bütün bu reallıqları nəzərə alaraq, aprelin 11-də keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə Milli Məclisin deputatları Kamilə Əliyeva və Elşən Musayev çıxış edərək, bildiriblər ki, Azərbaycanın qısa zaman kəsiyində böyük inkişaf yolu keçməsi müstəqilliyimizin ən böyük uğurlarından biridir. Ulu Öndər Heydər Əliyevin qurduğu müasir Azərbaycan dövləti bu gün Prezident İlham Əliyevin liderliyi ilə daha da inkişaf edir və qüdrətlənir. Cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən düşünülmüş, çevik, qətiyyətli, uzaqgörən siyasət nəticəsində ölkəmiz mühüm siyasi, iqtisadi-sosial uğurlara nail olub. Millət vəkilləri seçiciləri Azərbaycanın daha qüdrətli inkişafı naminə Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Rayon təbliğat qrupunun üzvləri Əsgər Məmmədov, Gülnigar Məmmədova, Kəmalə Əhmədova, Xanım İsayeva və Namidə Süleymanova çıxışlarında YAP-ın namizədi Cənab İlham Əliyevin Azərbaycan dövlətçiliyinə misilsiz xidmətlərindən danışaraq, Azərbaycan xalqını, o cümlədən, zaqatalalıları alternativsiz Liderə - Cənab İlham Əliyevə səs verməyə çağırıblar.



## Suraxanı seçiciləri alternativsiz Liderə səs verəcəklər



***Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Suraxanı rayon şöbəsi YAP tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüş keçirib. Görüşdə çıxış edən YAP Suraxanı rayon təşkilatının və rayon şöbəsinin sədri Vüqar Seyidov Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirməklə, ölkəmizin sabitlik və inkişafın, vətəndaş həmrəyliyinin təmin olunduğunu güclü dövlətə çevrildiyini bildirib. Rayon şöbəsinin sədri müstəqil Azərbaycanın daha böyük uğurlar əldə etməsi naminə, seçiciləri fəal olmağa və partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.***

Görüşdə Suraxanı rayon seçicilərindən Arif Babayev çıxış edərək, bildirib ki, 2003-2018-ci illərdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında dövlətimizin qüdrəti artıb, ölkəmizin siması bütünlüklə dəyişib, əhalinin həyat səviyyəsi yüksəlib. Vurğulayıb ki, xalqın böyük rəğbət və inamını qazanmış Cənab İlham Əliyevin prezidentliyə namizədliyi geniş ictimaiyyət tərəfindən 7 il üçün daha güclü və qüdrətli Azərbaycan naminə dəstəklənəcəyi şübhəsizdir.

Tədbirdə çıxış edən Milli Məclisin üzvləri Sevinc Fətəliyeva və Ağacan Abıyev 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası ilə həyata keçirilən islahatlardan danışaraq, seçiciləri prezident seçkilərində alternativsiz namizəd olan Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Tədbirdə təbliğat-təşviqat qrupunun üzvləri Loğman Abdullayev, Hicran Şərifov, Elşad Həsənov, Mehman Əliyev, Sevinc Mansurova çıxış edərək, 11 aprel prezident seçkilərində seçiciləri məntəqələrə gələrək, Cənab İlham Əliyevə səs verməyə səsləyiblər.

**ZÜMRÜD**

# Mədəniyyət xadimlərinin alternativsiz seçimi İlham Əliyevdir



*Xalq artisti, professor, Azərbaycan Milli Konservatoriyasının "Muğam" kafedrasının müdiri Arif Babayevin yap.org.az-a müsahibəsi*

***- Arif müəllim, istərdik ki, Azərbaycan cəmiyyətinin sayılıb-seçilən bir nümayəndəsi kimi sizin fikrinizi bilək. Aprelin 11-də keçiriləcək prezident seçkilərində hansı namizədin qalib olmasını arzulayırsınız və niyə?***

- Mənim 80 yaşım var. Həyatı görə-görə gəlmişəm. Arxada qalan illərdə qazandığım təcrübə yaxşını pisdən fərqləndirməyimə imkan verir. Mən Allaha çox şükür edirəm ki, müstəqil dövlətimizi qura bilmişik. Görün dünyada nə qədər xalq var, ancaq onların bir çoxunun dövləti yoxdur. Öz taleyinin sahibi olmaq xalqımızın çox böyük uğurudur. Biz müstəqilliyimizin qədrini bilməliyik, yaşından asılı olmayaraq hər kəs dövlətimizin sütunlarının möhkəmlənməsinə öz töhfəsini verməlidir. Ulu öndərimiz Heydər Əliyev bu fikri həmişə vurğulayırdı ki, müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətindir.

Mən hesab edirəm ki, seçki marafonuna qatılan namizədlərdən kim çalışdığı sahədə dövlətçiliyimizin möhkəmlənməsinə, ölkəmizin inkişafına daha çox töhfə veribsə və bu ali məqsəd naminə çalışırsa, o da qalib olmağa, xalqın etimadını, seçicilərin mandatını qazanmağa layiq olmalıdır. Mən namizədlərin siyahısına baxmışam. Əlbəttə, onların arasında Azərbaycan naminə bu və ya digər xidmətləri göstərən namizədlər də var. Ancaq mən onların arasında favorit, ən layiqli namizəd kimi hörmətli Prezidentimiz İlham Əliyevi görürəm. Hesab edirəm ki, dövlətçiliyimizə xidmət məsələsində İlham Əliyevlə seçki marafonuna qoşulan digər namizədlər arasında müqayisəyəgəlməz fərq var.`

İndiki narahat dövrdə dövləti idarə etmək asan məsələ deyil. Gəlin dünyanın mənzərəsini göz önündə canlandıraq. Ayrı-ayrı ölkələrdə insanlar qarşıdurmalardan, müharibələrdən, ərzaq çatışmazlığından əziyyət çəkirlər. Şəxsən mən televizorda adi dolanışıq naminə doğma yerləri tərk edib Avropaya üz tutan miqrantların üzləşdikləri məşəqqətləri görəndə ürəyim ağrıyır. Azərbaycanda isə əmin-amanlıq, sabitlik var. Hesab edirəm ki, bu, hər şeydən vacibdir. İnsanlar sabahkı günə ümidlə baxırlar, həyatlarını inamla qururlar. Ölkəmizdə əmin-amanlığı təmin edən Prezident İlham Əliyevdir. O, Azərbaycan xalqının firavan yaşaması, ölkəmizin milli maraqlarının təmin olunması üçün əlindən gələn hər şeyi edir.

İlham Əliyevi müsbət mənada fərqləndirən cəhətlərin sayı çoxdur. Mən xanəndəyəm, sənət adamı kimi tez-tez respublikanın bölgələrinə səfərə gedirəm. Tam səmimi deyirəm. Əvvəllər bölgələrə səfərə gedəndə ciddi narahatlıq keçirərdik. Harada qalacağımız probleme çevrilirdi. Yol-iz bərbad vəziyyətdə idi, adi rahatlıqlar belə yox idi. Ancaq indi vəziyyət fərqlidir. Bölgələrimizin siması tamam dəyişib. Regionlardakı şərait, kommunal rahatlıqlar elə paytaxt Bakıdakı kimidir. Bölgələrdə müasir və milli memarlıq üslubunda tikilən yeni mədəniyyət ocaqları, konsert salonları sənət adamlarının öz məharətlərini nümayiş etdirmələrinə imkan verir. Bölgələrdə yaşayan insanlar da bizimlə söhbətlərində bütün bunlardan məmnunluqlarını bildirirlər və onlar üçün belə şəraiti yaratdığına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə edirlər.

Xarici ölkələrdə də Azərbaycana münasibət dəyişib. Mən dünyanın 64 ölkəsində olmuşam, müxtəlif konsert salonlarında muğamlarımızı səsləndirmişəm. Xaricdə çoxlu dostlarım var. Onlar da vaxtaşırı müxtəlif mədəni tədbirlərdə iştirak etmək üçün Bakıya təşrif gətirirlər. Bilsəniz qonaqlar şəhərimiz, bütövlükdə Azərbaycan haqqında necə xoş sözlər ifadə edirlər. Onlar ölkəmizin inkişafından, Bakıdakı yeni tikililərdən, müasirliklə qədimliyin vəhdətindən heyrətə gəldiklərini gizlətmirlər. Ölkəmiz, şəhərimiz haqqında belə xoş sözləri eşitmək adamda qürur, milli iftixar hissi yaradır.

Eyni zamanda, ölkəmizin sadaladığım reallıqları bizi nə qədər sevindirirsə, həm də məsuliyyət hissimizi artırır. Bu inkişaf, bu quruculuq, necə deyərlər, sehrli çubuq sayəsində baş vermir, görülən işlərin arxasında dövlət başçısı İlham Əliyevin gecəli-gündüzlü zəhməti dayanır. Bu işlərin miqyasını göz önündə canlandıranda düşünürəm ki, Prezidentimiz gecə də, gündüz də çalışır.

***- Yəqin ki, siz İlham Əliyevin milli mədəniyyətimizə qayğısından ayrıca söhbət açmaq istərdiniz.***

- Mən deyərdim ki, İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın milli mədəniyyətimizə qayğısı daha geniş bir söhbətin mövzusudur. İndi ölkəmizdə müxtəlif sahədə çalışan insanlar deyə bilərlər ki, Prezident İlham Əliyev məhz onlara daha artıq dərəcədə diqqət və qayğı göstərir. Mən isə hesab edirəm ki, milli mədəniyyətimiz İlham Əliyevin timsalında özünün böyük hamisini, mədəniyyət sahəsində çalışanlar isə özlərinin böyük dostlarını tapıblar.

Dövlətimizin başçısı ölkədə mədəniyyətin inkişafına xüsusi diqqətlə yanaşır. O, sözün əsl mənasında, mədəniyyətimizin, milli dəyərlərimizin təəssübkeşidir. Mən yenə müqayisələr aparmaq istərdim. Müstəqilliyimizin ilk illərində mədəniyyət ocaqlarının, mədəniyyət kollektivlərinin, bu sahədə çalışanların vəziyyəti dedikcə ağır idi. İndi isə bütün ölkə miqyasında mədəniyyət ocaqları yenidən qurulur, qədim tarixi abidələrimizə yeni həyat verilir, mədəniyyət xadimlərinin, bu sahədə çalışanların sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı əhəmiyyətli addımlar atılır. Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən bu işlərə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva da öz layihələri ilə dəstək verir. Azərbaycan mədəniyyətinin dünya miqyasında təbliği, milli muğam sənətinin yaşadılması ilə bağlı görülən işlər indi ölkəmizin beynəlxalq imicinin formalaşmasında mühüm rol oynayır. Son illərdə reallaşdırılan tədbirlər, Bakıda muğam mərkəzinin istifadəyə verilməsi, muğam festivallarının keçirilməsi milli musiqi mədəniyyətimizin mühüm qolu olan muğama yeni nəfəs verib, desək, əsl həqiqəti ifadə etmiş olarıq.

Mənim hazırda çalışdığım Azərbaycan Milli Konservatoriyasının yeni binasının yüksək səviyyədə tikilərək istifadəyə verilməsi İlham Əliyevin milli musiqimizə, bütövlükdə mədəniyyətimizə çox həssas münasibətinin ifadəsidir. Xalqımızın Ümummilli lideri Heydər Əliyevin 2000-ci ildə imzaladığı Fərmanla yaranan Azərbaycan Milli Konservatoriyası müstəqillik dövründə fəaliyyətə başlayan ilk ali məktəblərdən biridir. Ulu öndərin 2001-ci il 10 avqust tarixli "Azərbaycan Milli Konservatoriyasının maddi-texniki bazasının yaradılması haqqında" Sərəncamı ilə Bakı Musiqi Kolleci və respublika İncəsənət Gimnaziyası Milli Konservatoriyanın tərkibinə daxil edildi. Beləliklə, Ümummilli lider Heydər Əliyevin təhsilin və mədəniyyətin inkişafına göstərdiyi qayğı yeni tarixi dövrdə xalqımıza daha bir təhsil ocağını - Milli Konservatoriyanı bəxş etdi.

Sonrakı dövrdə Milli Konservatoriyanın fəaliyyəti dövlətimizin başçısı İlham Əliyevin diqqətindən kənarda qalmadı. 2006-cı ildən Milli Konservatoriyanın yeni inzibati-tədris kompleksinin tikintisinə başlandı. 2012-ci ildə Prezident İlham Əliyev bu təhsil ocağının inşası ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzaladı və müvafiq maliyyə vəsaiti ayrıldı. Milli Konservatoriyanın yeni inzibati-tədris kompleksinin açılışı isə Prezident İlham Əliyevin və ölkənin birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə 2014-cü il 13 fevral tarixində baş tutdu. Beləliklə, müəllim və tələbələr çox böyük hədiyyə almış oldular. Milli Konservatoriyanın yeni binasında ən müasir standartlar səviyyəsində şərait yaradılıb. Burada 1000 nəfərin təhsil alması üçün imkan var.

Mən çalışdığım Milli Konservatoriya barədə geniş söhbət açdım. İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizin digər təhsil və mədəniyyət ocaqlarında da belə gözəl şərait yaradılıb. Hesab edirəm ki, İlham Əliyevin Milli Konservatoriyanın yeni inzibati-tədris kompleksinin açılışı mərasimində dediyi "Biz hamımız çalışmalıyıq ki, milli musiqimiz yaşasın, inkişaf etsin, zənginləşsin" sözləri Onun bütövlükdə zəngin Azərbaycan mədəniyyətinə münasibətdə dərin təəssübkeşliyini ifadə edir.

Təbii ki, dövlət başçısının davamlı diqqət və qayğısı mədəniyyət sahəsində çalışanlarda Ona qarşı dərin hörmət və ehtiram hissi formalaşdırıb. Bu gün mədəniyyət sahəsində çalışanların böyük əksəriyyəti İlham Əliyevin ölkəni inamla idarə etməsindən, milli mədəniyyətimizə hamilik göstərməsindən razıdırlar və bu hərtərəfli qayğıya daha fədakar çalışmaqla, daha geniş yaradıcılıqla cavab verməyə çalışırlar. O ki qaldı aprelin 11-də keçiriləcək seçkilərə, biz mədəniyyətimizə və mədəniyyət sahəsində çalışanlara dövlət qayğısının davamlı olmasını istəyirik. İstəyirik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə başladığımız işlər, yeni layihələr elə Onun iştirakı ilə də tamamlansın. Bizim seçkilərdə alternativsiz seçimimiz İlham Əliyevlə bağlı olacaq!

***- Arif müəllim, milli mədəniyyətimizdən, muğamlardan söhbət açarkən musiqi beşiyi olan Qarabağı xatırlamamaq mümkün deyil. Bilirik ki, Ağdamda dünyaya göz açan xanəndə kimi, siz də qəlbinizdə böyük bir nisgil gəzdirirsiniz. İlham Əliyevin ölkənin ərazi bütövlüyünün təmin olunması istiqamətində apardığı siyasət barədə nə deyə bilərsiniz.***

- Mən Ağdamın Sarıhacılı kəndində anadan olmuşam. Düşünürəm ki, xanəndəlik də mənə elə Qarabağın torpağı, daşı, axan çayları, saf havası ilə verilib. Axı Qarabağda hər şey sanki elə muğam zümzümə edir. Torpaqlarımızın işğal altında qalması həm bir azərbaycanlı, həm də o yerlərdə dünyaya göz açan bir insan kimi, məni göynədir. O yerlərlə bağlı qəlbimdə sonsuz xatirələr var. Mən yaxşını da, pisi də görən bir insanam. Ən böyük arzum Qarabağın, doğma Ağdamın azad edilməsini görməkdir. Məni buna ruhlandıran isə Prezident İlham Əliyevin apardığı siyasətdir. Dövlət başçımız bəzi beynəlxalq təşkilatların ikili standartlar sərgiləməsinə, işğalçı Ermənistanın başını sığallamasına rəğmən, qətiyyətlə bəyan edir ki, Azərbaycanın ərazi bütövlüyü mütləq bərpa olunmalıdır.

Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Milli Ordunun davamlı olaraq güclənməsi son vaxtlarda təmas xəttində Azərbaycanın üstün mövqe qazanmasını təmin edib. Şanlı aprel döyüşləri isə xalqımızın böyük zəfərinin uzaqda olmadığından xəbər verir. Hesab edirəm ki, Cocuq Mərcanlının bərpası Böyük Qayıdışın başlanğıcıdır.

2017-ci ildə Cocuq Mərcanlı kəndinin bərpası təmin edilib. Eyni zamanda, Şıxarx qəsəbəsində böyük şəhərcik salınıb. İşğaldan azad edilən ərazilərdə hər cür rahatlığa malik qəsəbələrin salınması böyük rəmzi məna daşıyır. Bu kimi layihələrin icrası ilə biz dövlətimizin, xalqımızın iradəsini göstəririk. Bir daha göstəririk ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Biz hamımız hörmətli Prezidentimiz İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün təmin olunması istiqamətində apardığı siyasətə dəstək verməliyik, həmişə Onun yanında olmalıyıq!

# AZƏRBAYCAN RESPUBLIKASININ DÖVLƏT SƏRHƏD XİDMƏTİ

*Azərbaycan Sərhəd Mühafizəsinin 99-cu ildönümü münasibətilə müsabiqə*

**ELAN EDİR**

Müsabiqənin keçirilməsi gənc nəsli Vətənə, onun sərhədlərinə hörmət ruhunda tərbiyə etmək, onların dünyagörüşünü və sərhəd xidmətinə marağını artırmaq, Dövlət Sərhəd Xidmətinin əldə etdiyi nailiyyətlərin, sərhəd xidmətinin xüsusiyyətlərinin, cəmiyyətdəki rolunun və əhəmiyyətinin ictimaiyyətə çatdırılması, sərhədlərimizin mühafizəsi sahəsində əcdadlarımızdan miras qalmış milli-mənəvi dəyərlərin, ənənələrin yaşadılması məqsədini daşıyır.

Müsbiqə bədii ədəbiyyat (şeir, hekayə), təsviri sənət (rəngkarlıq), qəzet məqaləsi və "Sərhədlərimizin keşiyində" mövzusunda inşa yazısı nominasiyaları üzrə keçirilir.

**Müsabiqənin şərtləri:**

**1.** Müsabiqənin bədii ədəbiyyat (şeir, hekayə), təsviri sənət (rəngkarlıq) və qəzet məqaləsi nominasiyasında yaşından asılı olmayaraq bütün yaradıcı şəxslər, "Sərhədlərimizin keşiyində" mövzusunda inşa yazı müsabiqəsində sərhədyanı rayonların orta məktəblərinin 10-cu sinif şagirdləri iştirak edə bilərlər.

**2.** Bədii ədəbiyyat (şeir, hekayə), təsviri sənət (rəngkarlıq) və qəzet məqaləsi nominasiyasında təqdim olunan əsərlərin üzərində müəllif barədə məlumatlar göstərilmir. Həmin məlumatlar anketdə əks etdirilir (anketin forması qaydaya əlavə olunur) və zərfə qoyulur. Həm əsərin arxasında, həm də zərfin üzərində şərti ad qeyd olunur. Təsviri sənət üzrə iştirakçılar müsabiqəyə 90 x 70 santimetr ölçüdən kiçik olmamaqla əsərlər təqdim etməlidirlər. Əsərlər kətan parça üzərində çəkilməli və çərçivəyə salınmalıdır. Əsərlər müvafiq qaydada doldurulmuş anketlə birlikdə 2018-ci il may ayının 22-dək Dövlət Sərhəd Xidmətinin Şəxsi Heyət üzrə Baş İdarəsinə təqdim edilməlidir.

**3.** İnşa yazısı 12 vərəqli dəftərdə, göy rəngli qələmlə yazılmalı, dəftərin üz hissəsində şagird haqqında məlumat (şagirdin adı, soyadı və atasının adı, rayon və məktəb haqqında məlumat və əlaqə telefonu) qeyd olunmalıdır. Müsabiqənin keçirilməsi və qiymətləndirilməsi üçün hərbi hissələrdə rayon təhsil şöbələri ilə birgə xüsusi komissiyalar yaradılır. Komissiyalar 3 (üç) ən yaxşı inşa yazısını qiymətləndirir və 2018-ci il may ayının 22-dək Dövlət Sərhəd Xidmətinin Şəxsi Heyət üzrə Baş İdarəsinə təqdim edir.

**4.** Təqdim olunan bütün əsərlərdə Azərbaycan Sərhəd Mühafizəsi tərənnüm edilməli, əsərlər müsabiqəyədək heç bir yerdə çap, nəşr və yaxud nümayiş etdirilməməlidir.

**5.** Dövlət Sərhəd Xidmətinin, Təhsil Nazirliyinin, Azərbaycan Rəssamlar İttifaqının, Azərbaycan Yazıçılar Birliyinin və Mətbuat Şurasının nümayəndələrindən ibarət komissiya yaradılır, komisiya hər nominasiya üzrə 3 (üç) ən yaxşı əsəri seçir, qalibləri müəyyən edir.

**6.** Müsabiqənin nəticələri Azərbaycan Sərhəd Mühafizəsinin yaranmasının 98-ci ildönümü ərəfəsində elan ediləcəkdir.

**7.** Müsabiqə ilə bağlı yaranmış suallarla bağlı iştirakçılar hərbi hissələrin şəxsi heyət üzrə şöbələrinə və Dövlət Sərhəd Xidmətinin Şəxsi Heyət üzrə Baş İdarəsinə müraciət edə bilərlər.

**Müsabiqə qalibləri üçün aşağıdakı mükafatlar təsis olunur:**

**Bədii ədəbiyyat üzrə:**

**Şeir**

I yer - 1-ci dərəcəli diplom və 400 (dörd yüz) AZN məbləğində pul mükafatı;

II yer - 2-ci dərəcəli diplom və 300 (üç yüz) AZN məbləğində pul mükafatı;

III yer - 3-cü dərəcəli diplom və 200 (iki yüz) AZN məbləğində pul mükafatı.

**Hekayə**

I yer - 1-ci dərəcəli diplom və 400 (dörd yüz) AZN məbləğində pul mükafatı;

II yer - 2-ci dərəcəli diplom və 300 (üç yüz) AZN məbləğində pul mükafatı;

III yer - 3-cü dərəcəli diplom və 200 (iki yüz) AZN məbləğində pul mükafatı.

**Təsviri sənət üzrə:**

**Rəngkarlıq**

I yer - 1-ci dərəcəli diplom və 700 (yeddi yüz) AZN məbləğində pul mükafatı;

II yer - 2-ci dərəcəli diplom və 600 (altı yüz) AZN məbləğində pul mükafatı;

III yer - 3-cü dərəcəli diplom və 500 (beş yüz) AZN məbləğində pul mükafatı.

**Qəzet məqaləsi üzrə:**

I yer - 1-ci dərəcəli diplom və 300 (üç yüz) AZN məbləğində pul mükafatı;

II yer - 2-ci dərəcəli diplom və 250 (iki yüz əlli) AZN məbləğində pul mükafatı;

III yer - 3-cü dərəcəli diplom və 200 (iki yüz) AZN məbləğində pul mükafatı.

**İnşa yazısı üzrə:**

I yer - 1-ci dərəcəli diplom və 300 (üç yüz) AZN məbləğində pul mükafatı;

II yer - 2-ci dərəcəli diplom və 250 (iki yüz əlli) AZN məbləğində pul mükafatı;

III yer - 3-cü dərəcəli diplom və 200 (iki yüz) AZN məbləğində pul mükafatı;

**Müsabiqə ilə bağlı əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar:**
Ünvan: Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 30, Dövlət Sərhəd Xidməti Aparatının inzibati binası
Əlaqə telefonları: **012 498-01-55, 012 498-01-29, 050 271-47-14**

**Müsabiqə iştirakçısının anketi (nümunə)**

______________________________
(soyadı, adı, atasının adı)

Doğum tarixi ______________________________

Təhsili ______________________________

İş yeri, vəzifəsi ______________________________

Ünvan, telefon (ev, iş, mobil) ______________________________

**Müsabiqəyə təqdim olunan işlər**

1. ______________________________
2. ______________________________

(əsərin adı)

İşi təhvil verdi: ______________________________

İşi təhvil aldı: ______________________________

# Erməni portalı: "Aprel döyüşləri Ermənistan hərbçilərinin və siyasətçilərinin səriştəsizliyini ortaya qoydu"

Aprel döyüşləri Ermənistan ordusunun qəhrəmanlığı haqqında iddiaların əsasının olmadığını göstərdi. Azərbaycan ordusu həmin döyüşlər zamanı Ermənistanın mövqelərinə ağır zərbələr vurdu.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Ermənistanın "1in" saytında yayılan məqalədə yer alıb. Yazıda bildirilir ki, dördgünlük müharibə Ermənistan hərbçilərinin və siyasətçilərinin səriştəsizliyini ortaya qoydu. Azərbaycan ordusunun uğuru olan bu əməliyyat Ermənistan hərbçilərinin və siyasətçilərinin fəaliyyətinin boş perspektiv üzərində durduğunu göstərdi. 1994-cü ildə əldə edilən atəşkəsdən sonra Ermənistanda yalnız korrupsiyanın, seçki fırıldaqçılığının inkişafı istiqamətində işlərin aparıldığı ortaya çıxdı. Bu döyüşlər Azərbaycanın üstünlüyə malik olduğunu, həmçinin öz strateji məqsədlərinə çatmaq iqtidarında olduğunu sübut etdi.




# Orduxanla Turalın digər satqın dostu haqqında şok faktlar

*Yaxud "Reshat Mehmetov" adlı dələduz, oğru və insan alverçisi*

Avropada "siyasi mühacir" adı altında dövlət maraqlarımız əleyhinə fəaliyyət göstərən daha bir şəxs haqqında maraqdoğurucu məlumatlar əldə etmişik. Aparılan araşdırmalar nəticəsində və Almaniyadakı etibarlı mənbənin verdiyi məlumata görə, həmin şəxs Facebook sosial şəbəkəsində "Reshat Mehmetov" (çox güman ki, Rəşad Məmmədov-R.N.) adı ilə səhifə açaraq, Azərbaycanın milli dövlətçilik maraqlarına qarşı paylaşımlar edir və o, Orduxan Teymurxanın (Bəbirovun), həmçinin, Tural Sadıqlının yaxınlarından biridir.

Mənbə qeyd edir ki, Almaniyanın Frankfurt şəhərinə yaxın olan Neuwied adlı şəhərdə yaşayan bu şəxsin Azərbaycanda dağıdıcı müxalifət düşərgəsinin "liderləri" ilə də gizli əlaqələri var. Özünün müəyyən etdiyi məbləğlər qarşılığında, eləcə də, "siyasi mühacir" adı altında Avropaya köçmək istəyənlərə həmin istiqamətdə "xidmət" göstərir. Lakin məsələnin digər maraqdoğurucu tərəfləri araşdırılarkən, dəhşətli faktlar üzə çıxır.



Onu görənlər bildirirlər ki, Rəşad saqqal saxlayır və bu vasitə ilə alman polislərindən gizlənməyə çalışır.

### Almaniyaya apardığı qadınlardan sənəd düzəltmək adı ilə pasportlarını əllərindən alıb, zorla yola çıxarıb

Mənbənin qeyd etdiyinə görə, Almaniyaya apardığı bir çox insanlar, xüsusilə qadınlar Rəşadın girovlarına çevrilirlər. O, Almaniyaya apardığı qadınlarından sənəd düzəltmək adı ilə pasportlarını əllərindən alıb, zorla yola çıxarıb. "Avtostop" deyilən vasitə ilə qadınları fahişəliyə cəlb edən Rəşad, həmçinin, dələduzluğu ilə də tanınır. Onun bir çox insandan pul alaraq, uzun müddət gizləndiyi barədə də məlumatlar öz təsdiqini tapmaqdadır. Bütün bunlardan sonra Almaniyanın hüquq-mühafizə orqanlarına barəsində şikayətlər daxil olan bu şəxsin deportasiya olunması üçün qərar verilib və o, ölkədən çıxarılmamaq üçün qaçıb gizlənib.

### Müxtəlif insanlardan pul alıb və qaçıb gizlənib

Əldə etdiyimiz daha bir məlumata görə, Rəşadın Azərbaycanda yaxın qonşusu olmuş bir şəxs, qarşı tərəfin ondan 1500 avro pul alaraq, anasını Almaniyaya aparacağı vədini verib. Ancaq sonradan nə Rəşad, nə də ödənilən məbləğ barədə məlumat olmayıb. Eyni zamanda, onun digər insanlardan da müəyyən məbləğlərdə maddi vəsait alaraq, verdiyi vədlərini reallaşdırmadığı bildirilir.

İki uşaq atası olan Rəşadın saxta sənədlərlə Almaniyadan Azərbaycana avtomobil gətirdiyi barədə də informasiyalar aparılan araşdırmalar nəticəsində, üzə çıxıb.

Göründüyü kimi, "ədalətdən" və s. bənzər məsələlərdən spekulyativ şəkildə yararlanmağa çalışan avropalı xəyanətkarlar yığnağının ətrafı yalnız belə çirkin əməllərə mübtəla olan qruplardan ibarətdir və onlar hər vəchlə Azərbaycanın güclü və sarsılmaz dövlətçilik prinsiplərinə qarşı bəlli qüvvələrə nökərçilik edirlər. Lakin unudurlar ki, gec, ya da tez törətdikləri iyrənc əməllərinə görə cavab verməli olacaqlar.

**RÖVŞƏN RƏSULOV**

# Yerli özünüidarəyə seçkiləri gender hüquqları baxışından

***Yerli özünüidarə, əhalinin ərazi-inzibati özfəaliyyətinin nəzəriyyəsi, yerlərdə muxtar özünüidarənin prinsipləri günümüzün adi gerçəkliyinə çevirməkdədir. Nəinki Azərbaycan və başqa Cənubi Qafqaz respublikalarında, keçmiş SSRİ respublikalarının hamısında yerli özünüidarə, bələdiyyə sisteminin qurulması demokratiyanın bərqərar olmasının, vətəndaş cəmiyyətinin qurulmasının, hüquqi dövlət uğrunda mübarizə aparmağın yeganə yoludur. Fəlsəfə elmləri doktorları Əli Abbasov və Yelena Qasımova yazırlar: "Onilliklər boyu hökm sürən totalitar rejim insanları cəmiyyətin idarə olunması problemindən uzaqlaşdırıb, onlarda dərin tarixi kökləri olan yerli özünüidarə məsələlərinə tam laqeydlik formalaşdırıb. Bu baxımdan, 1985-ci ildə Avropa Şurasının təşəbbüsü ilə qəbul olunmuş yerli özünüidarənin Avropa Xartiyasının yerli icmalara mümkün qədər çox idarə səlahiyyətlərinin verilməsi, bu səlahiyyətlərə dövlətin qarışmamasını tələb edən müddəaları diqqətəlayiqdir.***

Belə bir qərar vermək üçün insan hüquq və azadlıqlarına hörmət etmək kifayətdir. Onların arasında özünüidarə hüququ da var. Yerli özünüidarə vətəndaşlara onların gündəlik həyatı ilə bağlı qərarların qəbul edilməsində şərait yaradır, onların bu hüququndan yararlanması isə başqa vətəndaş hüquqlarının qorunmasına xidmət edir. Məhz buna görə, Xartiya AŞ-yə üzv olan dövlətlərin üzərinə yerli icmaların siyasi, inzibati və maliyyə müstəqilliyini qorumaq, inkişaf etdirmək və möhkəmləndirmək öhdəliyini qoyur.

Xartiya bütün postsovet ölkələrində bələdiyyə hüququnun formalaşmasında əsas qərarlar qəbul edərkən onların təmsil etdiyi sosial qrupların maraqlarını nəzərə alsın. Belə qadınların yeni düşüncə tərzinə görə, hüquq ona sahib dura bilənə yetərincə gəlir gətirə biləcək bir insan kapitalıdır".

Yerli özünüidarə anlayışı altında nə başa düşülür? Xartiyaya görə, "yerli özünüidarə anlayışı altında yerli özünüidarə orqanları tərəfindən dövlət işlərinin mühüm hissəsinin öz öhdəsinə götürülməsi, onun öz səlahiyyətlərinə və yerli əhalinin maraqlarına uyğun olaraq qanun çərçivəsində idarə edilməsi başa düşülür". Bu və digər təriflər özünüidarənin müxtəlif formalarının bərqərarı və inkişafında yerli, regional və bəzən də tarixi, mədəni xüsusiyyətlərin rolunu, bu, yaxud başqa şəkildə qeyd edir. Avropa Xartiyası bununla əlaqədar dünyada mütləq bir-birinin eyni olan ölkələrin olmadığını, nəinki qəbul edir, hətta yerli özünüidarənin modellərinin müxtəlifliyini əvvəlcədən nəzərə alır və rəsmən bəyan edir. Bələdiyyələrin inkişafı yoluna nisbətən yeni qədəm qoyan ölkələrimizin yerli özünüidarənin gender prizmasından dəqiq təhlilinə kəskin ehtiyacı vardır.

Bütün postsovet məkanı üçün xarakterik olan sosial fikir ayrılıqları gender iyerarxiyasının zorakılıqla sürdürülməsinə- hakimiyyətin cinsi mənsubiyyətinə görə bölünməsinə gətirib çıxarır. Bəzən qəfil, bəzənsə dərk edilməyən və ona görə də, təbii olaraq, dağıdıcı funksiya daşıyan bu iyerarxiyanı-sülaləni, ənənəvi gender ideologiyasını daha da ağırlaşdırır. Bununla yanaşı, müasir Azərbaycan və Gürcüstan cəmiyyətlərində mövcud olan gender sülaləleri problemləri və onların doğurduğu problemlər vətəndaş cəmiyyəti və demokratiya quruculuğu ideyalarının daşıyıcıları üçün maraqlı olmalıdır.

Amma onu da qeyd etməliyik kı, artıq öz hüquqlarının müdafiəsini tələb edən qadınlar qrupu formalaşıb. Onlar yeni şəraitə nisbətən uyğunlaşa bilənlərdir. Onlar istəyirlər ki, səslərini duyan olsun, hakimiyyət qərar qəbul edərkən, onların da maraqlarını nəzərə alsın.

Ancaq bir vacib tərəfi də xatırlatmaq yerinə düşər. Heç bir qadın özünün yerli özünüidarəylə bağlı hüquqlarıyla maraqlanmır, bu vacib sahədəki liderliyi qeyd-şərtsiz kişilərə verərək, özlərinin sözügedən hakimiyyət orqanında təmsilçiliyinin gərəyini anlamadığını boynuna alır. İnsan hüquqlarının qorunması üçün yalnız dövlət və onun institutları tərəfindən bu sahədə qanunların yazılması və onların səmərəli icra mexanizmlərinin formalaşdırılması yetmir, insanların özlərinin də bunda maraqlı olması lazımdır. Əgər qadınlar öz hüquqlarını bilmirsə, nə onları qoruya, nə ala, nə də istifadə edə bilərlər. Bundan əlavə qadınların hüquqi biliksizliyi dövlət orqanlarının özbaşınalığına, hüquqi strukturların hərəkətsizliyinə yol açır.

Müəllif qeyd edir ki, yeni iqtisadi şəraitdə dövlət sosial təminatların böyük hissəsini ixtisara salıb, özəlləşdirilmiş müəssisələri isə, bir qayda olaraq, sosial sahə haqda düşünməkdən vaz keçir. Layihədə araşdırma aparılan Qax üçün bu, ümumi sosial müdafiənin səviyyəsinin düşməsinə səbəb olur.

Real olaraq respublikada qadınlara güzəştlərin yerini hüquqlara verməsini dərk etməsi prosesi hələ yenicə başlayıb. Bu prosesi dövlətin sosial-iqtisadi islahatlara özünəməxsus baxışı, hakimiyyət strukturları üzərində inkişaf etməmiş nəinki dövlət hakimiyyəti strukturuna daxil edilməyib, hətta qanunvericilərin iradəsiylə pilləli strukturdan da məhrum edilib. Qanunvericiliyə görə, növü və tərkibindən asılı olmayaraq (kənd, rayon, şəhər), istənilən bələdiyyədən yuxarıda duran, nəinki bələdiyyə orqanı (bələdiyyələrin birliyi və ya assosiasiyaları ancaq yığıncaq xarakteri daşıyır), hətta YÖO-nın işinə qarışmaq səlahiyyəti olan dövlət orqanı da yoxdur. Bu, həqiqətən də, AŞ-nın standartlarına cavab verən yerli özünüidarə prinsiplərinin bərqərar olması üçün vacib olan şərtlərdən biridir.

Bələdiyyələrlə vasitəçisiz və daimi iş vətəndaş cəmiyyətinin, hüquqi dövlətin və demokratik təcrübənin bərqərar olması üçün yeganə yoldur. Buna görə də, göstərdiyimiz istiqamət regionda fəaliyyət göstərən beynəlxalq fondlar və təşkilatlar üçün önəmli olaraq qalacaq. Bu təcrübəni genişləndirmək və yeni əməkdaşlıq formaları ilə zənginləşdirmək çox vacibdir.

Əsas problem yerli özünüidarənin fəlsəfəsi haqqında möhkəm dəqiq təsəvvürlərin olmamasıdır. Etiraf etmək lazımdır ki, hələ ki, demokratiyanın, vətəndaş cəmiyyətinin, hüquqi dövlətin inkişafının, yerli özünüidarələrin vətəndaşların cəmiyyətin idarə olunmasında özül zarətin olması, sıravi vətəndaşların, xüsusilə də, qadınların özlərinin cəmiyyət üçün vacib problemlərin həllində fəallıq göstərməməsini daha da ləngidir. Bunun köklərini aramaq tarixə baş vurmaq gərəkdir. Azərbaycanda Sovet hakimiyyətinin qurulması prosesi yarımüstəqil özünüidarə orqanlarının sovetlərin qurulması ilə başlayıb. Az keçməmiş bu orqanlar tam olaraq dövlətin və kommunist partiyalarının nəzarətinə keçir. Yalnız SSRİ-nin süqutu zamanı bu orqanlar özünüidarə statusunu müstəqilləşdirməyə can atdılar, ancaq İttifaqın dağılması bu prosesi də dayandırdı. Müstəqil dövlətin yerli özünüidarə orqanlarının (YÖO) yeni sisteminin yaradılması təqribən 9 il çəkdi. YÖO-nun qanunvericilik bazası Milli Məclisin (MM) yerli özünüidarə məsələləri üzrə komissiyası (1995-2000), daha sonra MM-in Regional Məsələlər üzrə Komissiyası (2000-ci ilin noyabrından) tərəfindən Azərbaycan Konstitusiyasının tamamilə bələdiyyələrə həsr olunmuş IV fəsli əsasında işlənib hazırlanırdı.

Əhalidə təsəvvürlər yox idi ki, Azərbaycanda YÖO-nın hakimiyyətin bir qolu deyil, əksinə, onlar, rolu oynadığının hansı perspektivlərə yol açdığının fərqində deyilik. Belə təsəvvürlərin olması yerli özünüidarə problemlərinə belə aşağı marağın əsas səbəblərindəndir. Bu marağın olmaması ölkəyə bələdiyyələşmə prosesini tormozlandıran əsas şərtlərdəndir. Başqa bir problemsə, bu prosesin öz səlahiyyətlərini yeni qurulacaq strukturlara vermək istəməyənlər tərəfindən süni tormozlanmışdır. Azərbaycanda yerli özünüidarə haqqında Avropa Xartiyası və Yerli və Regional Hakimiyyət Konqresinin işi haqda informasiyanın yayılması və real təcrübənin formalaşdırılması istiqamətində işin aparılması çox vacibdir. Bu, həm də YÖO sahəsində araşdırmalar aparan fəaliyyət göstərən çoxsaylı QHT-lərə da aiddir. Onlarında Konqresin nümayəndələri ilə əməkdaşlığı, nəinki ümumi işə fayda verər, həmçinin, YÖO üçün kadrlar hazırlanmasına faydalı olar. Ona görə də, hələlik, respublika miqyaslı, gələcəkdə isə bütün Cənubi Qafqaz regionunda YÖO üzrə fəaliyyət göstərəcək resurs-mərkəzinin yaranmasına ehtiyac var. Bizim fıkrimizcə, bu istiqamətdə aparılan işlər davam etdirilməli və genişləndirilməlidir. Çünki YÖO hələ yenicə ilkin struktur formasına düşür və hərtərəfli yardıma ehtiyacı var. Nəzərə alaq ki, bələdiyyələr daim müxtəlif formalı maneələrlə rastlaşır və heç də həmişə onları həll etmək iqtidarında olmur. Bu sahənin monitorinqi bizdə dəqiq təsəvvürlər oyatmağa imkan verər ki, hansı qanunverici və təcrübədə dəyişikliklər respublikanın YÖO-nın qarşısında mövcud olan maneələri dəf etmək üçün gərəklidir; hansı yolla regionda YÖO sahəsində ümumi qanunvericilik bazası yaratmaq olar; vətəndaş təşəbbüsləri səviyyəsində hansı yollarla hüquqi və iqtisadi inteqrasiyanın əsasını qoymaq olar?

Cənubi Qafqazın Avropa ilə yaxınlaşmasının yeganə düzgün yolu var: müharibədən sonrakı dövrdə Avropada yaranmış vətəndaş cəmiyyətinin nümunəsində bir cəmiyyət qurmaq. Bu sistemdə yerli özünüidarələr ilk yerlədən birini tutur. Artıq Cənubi Qafqaz ölkələri müstəqilliyinə qovuşub. Bu müddət ərzində region ölkələrində sosial-siyasi proseslər, vətəndaş cəmiyyətinin təşəkkül tapması, demokratik institutların formalaşması çox zaman münaqişəyə çevrilən ciddi problemlərlə üzləşib. İnsanların mentalitetindəki ətalət, vətəndaşın hüquq maarifçiliyinin aşağı səviyyəsi hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması yolunda olan çox ciddi və çətin keçilən əngəldir.

Bütün respublikalarda demokratiyanın əsas prinsipi olan azad seçkilər prinsipi ağır sınaqlara məruz qalır. Hədsiz sayda seçki saxtakarlıqları faktları qeydə alınır. Bu həyəcanlı vəziyyətin qorunmasında vətəndaşların seçkilərin roluna laqeyd münasibəti, onların seçki kampaniyalarında şəxsən iştirakının mənasını dərk etməməsi də öz bəhrəsini verir. Vəziyyət vətəndaşların hadisələrin indiki axarını dəyişməyin mümkünlüyünə inamının olmaması ilə daha da kəskinləşir. Bir çox hallarda, əsasən də, əyalətlərdə, islinilən növ seçkilərə laqeyd münasibət, dövlət quruculuğunda və demokratik institutların formalaşmasında vətəndaşların öz rolunu başa düşməməsi adi hal sayılır. Nəticədə, seçicilərin seçkilərdə, hətta yerli özünüidarə orqanlarına (YÖO) seçkilərdə) fəallığının aşağı səviyyəsi müşahidə olunur və bu da seçkinin nəticələrinin daha geniş miqyaslarda saxtalaşdırılmasına yol açır.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 5 aprel





R

## Oğuzlular xalqın ümidlərini doğruldan namizədə - Cənab İlham Əliyevə səs verəcəklər







11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Xaçmaz kəndində seçicilərlə görüş keçirilib.

YAP Mərkəzi Seçki Qərargahı Oğuz rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri Saleh Məhərrəmov vurğulayıb ki, Yeni Azərbaycan Partiyasının Prezidentliyə namizədi Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dönəmdə Azərbaycan hərtərəfli və sürətli inkişaf tempi əldə edib.

Görüşdə YAP Mərkəzi Seçki Qərargahı Oğuz rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Emin Əzimli, Anar Məcidov, Elnur İsrafilov çıxış edərək, vurğulayıblar ki, Cənab İlham Əliyevin 2003-cü ildən indiyə qədər ölkəmizə rəhbərlik etdiyi dövrdə Azərbaycan sabitlik adası kimi tanınıb. Bu gün Azərbaycanı bir çox ölkələrdən fərqləndirən xüsusiyyət, məhz ictimai-siyasi sabitlikdir. Sabitliyi şərtləndirən amil isə Cənab İlham Əliyev tərəfindən uğurlu daxili və xarici siyasət kursunun həyata keçirilməsidir.

Kənd seçiciləri İradə Səmədova, Elza Gülməmmədova və Azər Ağakişiyev çıxışlarında Cənab İlham Əliyevin yürütdüyü daxili və xarici siyasətin xalq tərəfindən, birmənalı şəkildə dəstəkləndiyini qeyd edərək, seçiciləri 11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində YAP-ın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən Milli Məclisin komitə sədri Aqiyə Naxçıvanlı bildirib ki, son 15 ilin gerçəklikləri əminliklə söyləməyə əsas verir ki, Prezident İlham Əliyev dövlət başçısı kimi Ona bəslənilən ümidləri doğruldub və özünü qətiyyətli və praqmatik siyasətçi kimi təsdiqləyib. Bu baxımdan da, 11 aprel prezident seçkilərində Oğuz seçiciləri ölkəmizin gələcək inkişafına və Ulu Öndər Heydər Əliyev siyasi kursunun davamına səs verəcəklər.

## Zərdablı səhiyyə və mədəniyyət işçilərinin seçimləri İlham Əliyevdir!




11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Zərdab rayonunda görüşlər davam etdirilir. Seçicilərlə növbəti görüş Zərdab rayon səhiyyə və mədəniyyət işçiləri ilə keçirilib.

Tədbiri YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova açaraq, Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı İlham Əliyev Cənablarının həyata keçirdiyi ardıcıl və sistemli islahatlardan, uğurlu daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə qazandığı nailiyyətlərdən bəhs edib. P.Mahmudova Zərdab rayon seçicilərini Ulu Öndər Heydər Əliyev siyasətinin davamı naminə 11 aprel seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.




Görüşdə çıxış edən Milli Məclisin deputatı Jalə Əliyeva bildirib ki, Azərbaycanda qazanılan hər bir qələbənin əsas mənbəyi xalqın Ulu Öndər Heydər Əliyev yoluna inamı və sədaqətidir. Jalə Əliyeva çıxışında Cənab İlham Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətlərindən, Azərbaycanın uğurlu, daxili və xarici siyasətindən, qazanılmış uğurlardan geniş söhbət açıb. O, qeyd edib ki, Azərbaycan xalqı prezident seçkilərində İlham Heydər oğlu Əliyevə səs verməklə bir daha sabitliyə, əmin-amanlığa və inkişafa səs verəcək.




Daha sonra çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Zərdab rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Ruslan Nemətov, Gülağa İsgəndərov, Vəfa Bayramova və Mübariz Umarov Cənab İlham Əliyevin rəhbərliyi altında son 15 il ərzində həyata keçirilmiş işlər və qazanılmış nailiyyətlər barədə öz fikirlərini bölüşdülər və seçiciləri 11 aprel 2018-ci il tarixdə Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə səsləyiblər.

Görüşdə mədəniyyət və səhiyyə işçiləri adından çıxış edən seçicilər, o cümlədən, Nailə Əliyeva, Südabə İsmayılova və Rəna Namazova da bu seçkilərdə Cənab İlham Əliyevin qələbə qazanacağına kimsənin şübhə etmədiyini söyləyərək, aprelin 11-də Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**